www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14-15 noyabr 2015-ci il Şənbə № 253 (6281) Qiyməti 40 qəpik

**Xəbər**

## Erməni diversiya qrupu məhv edildi - iki işğalçı öldü

yazısı səh.13-də

**Gündəm**

### Prezident vətəndaşların müraciətlərinin araşdırılmasına dair mühüm fərman imzaladı



Dövlət və bələdiyyə orqanları, təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər müraciətlərə ən geci 15 gün müddətində baxmalıdır

yazısı səh.7-də

### Arif Yunusun azadlığı digər məhbuslarla bağlı ümid yaradıb

yazısı səh.3-də

### Müxalifətin tələblərinə hakimiyyətdən cavab gəldi

yazısı səh.4-də

### Növbədə Fazil Məmmədovdurmu...

yazısı səh.9-da

### Laçın sakinindən icra başçısına ağır ittihamlar

yazısı səh.5-də

### Azərbaycanın xarici borcunun miqdarı açıqlandı

yazısı səh.7-də

### "Elmlər Akademiyasının adının qarşısında "milli" sözünün yazılması düzgün deyil"

yazısı səh.11-də

### MTN-dəki humanist həkim qız kimdir...

yazısı səh.5-də

### Məhkəmə ANS-in Xoşqədəm Hidayətqızı ilə bağlı iddiasını təmin etmədi

yazısı səh.14-də

### Əli Abbasov 8 il azadlıqdan məhrum edilə bilər

yazısı səh.9-da

### Azərbaycanda yeni ilan növü tapıldı

yazısı səh.14-də

### Mərkəzi Bankın dollar satışı bu həftə rekord həddə çatıb

yazısı səh.2-də

## İki sabiq nazirin rabitə sistemini ələ keçirməsinə dair şok detallar

# MƏZAHİR PƏNAHOV RABİTƏ NAZİRİ OLA BİLƏR - İDDİA

Eldar Mahmudovun Rabitə Nazirliyini "əsarət"ində saxlamasının detalları; hazırda Sabunçu Telefon Qovşağının rəhbəri olan Nəriman Salmanovu Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəhbəri vəzifəsindən işgəncə ilə uzaqlaşdırıblarmış...




yazısı səh.8-də

# Əli Kərimlinin AXCP-si qeydə alınmadı

Ədliyyə Nazirliyi məsələni məhkəmədə həll etməyi tövsiyə edib; **Razi Nurullayev:** "Biz onu tarixə gömdük..."

yazısı səh.3-də



*Pənah Hüseyn:*

**"Barak Obamaya, Angela Merkelə əriştə kəsməkdən əvvəl bizə umac ovun"**

yazısı səh.4-də



*Zahid Oruc:*

**"Söyləmək çətindir ki, hansı QHT rəhbərlərinə qarşı şəxsi qisasçılıq hissləri ilə davranıblar..."**

yazısı səh.6-da



**Arif Məmmədov səfir rütbəsindən məhrum edildi**

yazısı səh.2-də

# Nazirin səlahiyyəti İltimas Məmmədova həvalə edildi


İltimas Məmmədov

**"Rabitə və yüksək texnologiyalar nazirinin vəzifəsini İltimas Məmmədov icra edir". Bu barədə modern.az-a nazirliyin mətbuat xidmətindən məlumat verilib. Qeyd edilib ki, Əli Abbasov rabitə və yüksək texnologiyalar naziri vəzifəsindən azad edildikdən sonra bu səlahiyyət sabiq nazirin birinci müavini İltimas Məmmədova həvalə edilib və o, hazırda nazirin vəzifəsini icra edir.**

Qeyd edək ki, dünən prezident İlham Əliyevin sərəncamı ilə rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov vəzifəsindən azad edilib. Sabiq nazirin MTN hadisələri ilə bağlı işdən çıxarıldığı bildirilir. Eyni zamanda nazirliyin daha 10 əməkdaşının həbs edildiyi qeyd olunur.

# Masallıda 60 il öncə tikilmiş ev uçdu



**Masallı rayonunda 60 il öncə tikilmiş fərdi yaşayış evi uçub. Hadisə rayonun Mollaoba kəndində 47 yaşlı Əvəz Ağabala oğlu Baxşıyevə məxsus evdə qeydə alınıb.**

Son günlər bölgədə yağan intensiv yağıntılar səbəbindən evin bir hissəsi uçaraq yaşayış üçün yararsız vəziyyətə düşüb. Hadisə baş verən zaman evin sakinləri başqa otaqda olduqlarından xəsarət alan olmayıb.

Hazırda 6 nəfərlik ailə müvəqqəti olaraq qohumlarının yanında məskunlaşıb. Faktla bağlı rayonun müvafiq qurumları artıq məlumatlıdır.

Ümid edək ki, Fövqəladə Hallar Nazirliyinin rayon Fövqəladə Hallar Komissiyası ailənin üzləşdiyi problemin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görəcək, 6 nəfərlik ailənin yeni yaşayış yeri ilə təmin edilməsi yönündə gərəkən addımları atacaq.

❑ NURLAN

# Arif Məmmədov səfir rütbəsindən məhrum edildi


Arif Məmmədov

**Arif Zahid oğlu Məmmədov Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsindən məhrum edilib. APA-nın məlumatına görə, prezident İlham Əliyev bu barədə sərəncam imzalayıb.**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

"Qaya Mətbuat Yayımı" MMC!
**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Əli Həsənov: "Azərbaycan regionun mərkəzi ölkəsinə çevrilib"

**"Azərbaycan bölgədə nəqliyyat dəhlizlərinin yaradılmasında fəal rol oynayır və regionun nəqliyyat-logistika mərkəzinə çevrilib".**



«Trend»in məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Azərbaycanı kəşf et: Bakı 2015 buraxılışı" kitabının təqdimat mərasimində deyib.

Ə.Həsənov bildirib ki, biz sözün həqiqi mənasında bu gün möhtəşəm bir hadisənin qeyd edilməsi üçün bu zala yığışmışıq: "Azərbaycanın müasir inkişafının növbəti salnaməsi ingilis dilində zala toplaşanlara və Azərbaycan ictimaiyyətinə təqdim olunur. Layihə belə adlanır - "Azərbaycanın kəşfi Bakı 2015". Burada məndən öncə çıxış edənlər daha çox diqqəti 2015-ci ildə Azərbaycanda keçirilmiş Birinci Avropa Oyunlarına yönəltdilər. Bu oyunların standartlarının Azərbaycanda necə yaranmasına, necə inkişaf etməsinə diqqətlərini cəlb etdilər".

PA rəsmisi deyib ki, son 10 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb, əhalinin rifahı yüksəldilib: "Son bir neçə ildə qeyri-neft sektorunun xüsusi çəkisi 50 faizdən çox olub".

Ə.Həsənov qeyd edib ki, Azərbaycanda bütün dinlərin nümayəndələri Azərbaycanda mehribanlıq şəraitində yaşayır. PA rəsmisi əlavə edib ki, Azərbaycan regionun mərkəzi ölkəsinə çevrilib və beynəlxalq tədbirlərə ev sahibliyi edir.




# Mərkəzi Bankın dollar satışı bu həftə rekord həddə çatıb

**Azərbaycan Mərkəzi Bankı (AMB) dünən cari həftənin ən yüksək gündəlik dollar satışını həyata keçirib. Belə ki, noyabrın 13-də AMB-nin kommersiya banklarına dollar satışı 122 mln.-a yüksəlib. Qeyd edək ki, satışın həcmi keçən həftənin cümə günündən, yəni noyabrın 6-dan etbarən artmağa başlayıb və bu gün də daxil olmaqla, ümumilikdə 363 mln. dollara çatıb.**

"Report"un analitik qrupu qeyd edir ki, noyabrın 6-da AMB 49 mln. dollar, noyabrın 10-da 94 mln. dollar (noyabrın 9-u qeyri-iş günü olub), noyabrın 11-də 37 mln. dollar, noyabrın 12-də isə 61 mln. dollar həcmində satış həyata keçirib.

Satışın artmasının əsas səbəbi kimi dünya bazarında dolların mövqelərinin möhkəmlənməsi prosesinin davam etməsi ehtimalları və neftin qiymətinin yenidən azalmağa başlaması amilləri sadalanır.

Qeyd edək ki, dekabr ayında ABŞ-da uçot dərəcəsinin artırılması ehtimalının güclənməsi dollara olan tələbi artırıb. Ekspertlər dollar/avro məzənnəsinin ilin sonuna qədər paritetə çatacağını proqnozlaşdırırlar. Neftin qiyməti isə Çin iqtisadiyyatının zəifləməsi və İran neftinin bazara daxil olması gözləntiləri səbəbindən sürətlə azalmağa davam edir. Hazırda "Brent" markalı neftin qiyməti 44 dollar/barelə yaxınlaşıb. Belə davam edərsə, "Brent"in qiyməti yenidən 2008-ci ildəki 36 dollar/barel həddinə qayıdacaq.



# "ASAN Xidmət" uşaqlarla bağlı yeni layihəyə başlayıb

**"ASAN Könüllüləri" Təşkilatı "ASAN Məktub" adlı yeni layihəyə start verib. Bu barədə "Report"a "ASAN Xidmət"in mətbuat mərkəzindən məlumat verilib. Layihənin məqsədi həssas qruplara aid uşaqlara sevinc bəxş etmək və ümumilikdə sosial məsuliyyət, eləcə də cəmiyyətə qayğı hissini daha da artırmaqdır.**

"Uşaqlara ASAN sevgi" şüarı ilə sosial məsuliyyət hislərini aşılayan bu layihə www.asanmektub.az internet səhifəsi vasitəsi ilə əhalinin sosial cəhətdən həssas qruplarına aid uşaqların arzu və xəyallarını gerçəkləşdirəcək.

Layihə çərçivəsində 14 yaşadək sosial qayğıya ehtiyacı olan hər bir uşaq məktub yazacaq və yazdıqları məktublara xeyirxah insanlar tərəfindən cavab tapmış olacaqlar.

Vətəndaşlar www.asanmektub.az səhifəsi vasitəsi ilə onların cavabını gözləyən məktubu seçməklə uşaqların sevincinə sevinc qata bilərlər. Prosesin asanlaşdırılması məqsədi ilə, seçilən məktuba cavab "ASAN qasid" kimi çıxış edən ASAN könüllüləri vasitəsi ilə təklif edilən ünvandan götürülərək uşaqlara çatdırılacaq və vətəndaşa e-poçt, yaxud da digər əlaqə vasitələri ilə hədiyyənin çatdırılmasını təsdiq edən fotoşəkil göndəriləcəkdir.

Qeyd edək ki , "ASAN Məktub" layihəsi çərçivəsində müxtəlif rayonlarda yaşayan 200-dən çox uşağın arzusu artıq reallaşdırılıb.

# Cəlilabadda müəllimlər iki aydır maaş almır

**"İki aydır ki, maaşımız verilmir. Özü də bu vəziyyət təkcə bizim məktəbdə deyil, rayonun digər kəndləri, ümumiyyətlə, bütün rayon məktəblərində oxşar hal yaşanır".**

Bunu virtualaz.org saytına müraciət edən Cəlilabad rayonu, Vənlik kənd orta məktəbinin müəllimləri deyib.

Onların sözlərinə görə, məktəbdə çalışan pedaqoji işçilər axırıncı dəfə sentyabrın birinci yarısında maaş alıblar: "Sentyabrın 15-də keçən tədris ilinin pulunu almışıq. O vaxtdan bəri bizə pul verilməyib. Hamımızın dolanışığı çətindir, ödəniləcək kreditlərimiz var, amma pul tapa bilmirik".

İşdən qovulacaqlarından narahat olan və buna görə də adlarını açıqlamayan müəllimlər vurğulayıb ki, maaşlarının niyə gecikməsi ilə bağlı müdiriyyətdən də heç bir cavab ala bilməyiblər: "Belə şayiələr də var ki, məktəbin üzərinə "haqq" qoyulub. 5 min manat tələb olunur. Bu pul da bizim maaşımız hesabına yığılır. Ona görə pulsuz qalmışıq".

Qeyd edək ki, rayonun digər kəndlərində də eyni vəziyyətdir. Məsələn, Günəşli kənd 2 saylı orta məktəbinin müəllimləri də iki aydır maaş üzünə həsrətdir. Çox maraqlıdır ki, müəllimləri sonuncu dəfə sentyabr ayında maaş almış bu məktəbdən gələn məlumatlarda da tədris ocağının üstünə "5 min manat haqq" qoyulmasından danışılır.

Məktəbdəki vəziyyətlə bağlı Təhsil Nazirliyinə müraciət etdik.

**Nazirlikdən virtualaz.org-un sorğusuna cavab olaraq bildirildi ki, yerli təhsil şöbələri və onların tabeliyində olan təhsil müəssisələri Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilmir:** "Eyni zamanda müəllimlərə əmək haqqı və sosial müdafiə xarakterli digər ödəmələrin vaxtlı-vaxtında ödənilməsi, həmçinin gələcəkdə belə hallara yol verilməməsi ilə bağlı bütün şəhər (rayon) təhsil idarə və şöbələrinə, o cümlədən Cəlilabad Rayon Təhsil Şöbəsinə rəsmi qaydada tapşırıqlar verilib".

Müəllimlərin maaşının gecikməsinin səbəblərinə və "5 min manat haqq" iddiasına aydınlıq gətirmək üçün Cəlilabad Rayon Təhsil Şöbəsi ilə də əlaqə saxlamağa çalışdıq, amma telefon zənglərimiz cavabsız qaldı.



# Əli Abbasov Baş Prokurorluqda dindirildi

**Prezidentin sərəncamı ilə vəzifəsindən azad edilən rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov dünən yenidən Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə çağırılıb.**

Bu barədə virtualaz.org saytına hüquq-mühafizə orqanlarındakı mənbə məlumat verib.

Noyabrın 13-də günorta saatlarında mənbənin verdiyi məlumata görə, sabiq nazirin istintaqı 4 saatdan çox davam edib.

Qeyd edək ki, Əli Abbasov istintaqa ilk dəfə deyil çağırılır. Onu bundan əvvəl də ifadə verməyə çağırmışdılar. Səbəb nazirliyin həbs olunmuş aparat rəhbəri Vidadi Zeynalovun sabiq nazirin əleyhinə ifadə verməsi idi.

V.Zeynalovun özü isə "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin keçmiş baş direktoru Beytulla Hüseynovun ifadəsi əsasında həbs edilib. Beytulla Hüseynov da öz növbəsində sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun qohumudur.

Xəbər verdiyimiz kimi, Əli Abbasov bundan əvvəlki istintaq zamanı özünə qarşı bütün ittihamları rədd edərək Eldar Mahmudovun əleyhinə ifadə vermişdi

Qəzetimiz çapa gedənə qədər Ə.Abbasovun dindirilməsinin sona çatıb-çatmaması haqda məlumat yox idi.

# Con Kerri: "İŞİD-in sonuna sayılı günlər qalıb"

**"İŞİD terror qruplaşmasının sonuna sayıla günlər qalıb". Musavat.com-un xarici qaynağa istinadən verdiyi xəbərə görə, bu barədə ABŞ-ın dövlət katibi Con Kerri Tunisə səfəri çərçivəsində Suriyadakı böhrandan danışarkən bildirib.**

Onun sözlərinə görə, Amerikanın başçılıq elədiyi anti-İŞİD koalisiyası terror qruplaşmasına aviazərbələri davam etdirir və son əməliyyatların birində Londondan olan ekstremist başkəsən, "Cihad Con" ləqəbli Mühəmməd Emvazi də məhv edilib.

ABŞ dövlət katibi güman edir ki, İŞİD-in tezliklə sonu gələcək.

"Hələliksə koalisiyanın hərbi rəhbərliyi həyata keçirilən döyüş uçuşlarının dəyərləndirməsini aparır" - əlavə edib Amerika xarici siyasət idarəsinin başçısı.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Arif Yunusun azadlığı digər məhbuslarla bağlı ümid yaradıb

**Noyabrın 12-də Bakı Apelyasiya Məhkəməsinin politoloq Arif Yunusun azadlığa buraxılması barədə qərarı digər siyasilərin də azadlığa çıxma ehtimallarının üzərinə "yaşıl işıq" yandırıb. Xüsusilə Yeni ilə qədər barələrindəki hökmdən verilən şikayətlər əsasında məhkəmələri keçiriləcək A.Yunusun həyat yoldaşı Leyla Yunus, araşdırmaçı jurnalist Xədicə İsmayıl və Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin buna bənzər qərarla həbsxana ilə vidaşalacaqlarına ümidlər artıb.**

## Yeni ilə qədər məhkəmələri olan siyasilər barəsində bu cür qərarların ola biləcəyi ehtimal olunur

Bu ayın 29-da X.İsmayılla bağlı Apelyasiya Məhkəməsində növbəti məhkəmə prosesi keçiriləcək. Onun vəkili Fariz Namazlı A.Yunus barəsindəki qərarın hüquqlarını müdafiə etdiyi şəxsə də şamil olunacağına inanmır: "Açığı, Xədicə İsmayıl barəsində bu cür qərarın veriləcəyini gözləmirəm. Çünki bildiyimiz kimi, Arif Yunusun səhhətində ciddi problemlər var. Onun təzyiqinin yuxarı qalxması ölümlə nəticələnə bilər. Əgər MTN təcridxanasında belə bir ölüm hadisəsi baş verərsə, ciddi səs-küyə səbəb ola bilər. Bu baxımdan, Arif Yunusu azad etməyə məcbur oldular. Təbii ki, bu, tam azadlıq demək deyil. Sadəcə, onun barəsində həbs-qətimkan tədbiri dəyişdirilib. Amma məhkəmə sonunda qərar dəyişdirilə və o, yenidən həbsə atıla bilər. Amma çox güman ki, onun barəsində şərti cəza veriləcək. Digər məhbuslara qarşı münasibətdə belə bir qərar gözləmirəm. Xədicə xanımın indiki şəraitdə azad edilməsi real görünmür".

İntiqam Əliyevin qızı Nərmin Kamilsoy da atasının azad ediləcəyinə inanmadığını söylədi.

Dekabrın 7-də Yunusların məhkəməsi davam edəcək. Çoxları hesab edir ki, Leyla Yunus da həyat yoldası kimi məhkəmə zalından azad ediləcək. Bunu onun səhhəti ilə əlaqələndirirlər. Çünki onun səhhəti Arif Yunusdan da ağırdır. Bu baxımdan qadın vicdan məhbusuna da əri barədə qərarın şamil olunacağı deyilir.



Mehman Əliyev



Arzu Abdullayeva

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev bu cür qərarların davam edəcəyinə inandığını söylədi:** "Bu qərarın olacağını gözləyirdim. Hakimiyyət bu tipli addımlara getməyə məcburdur. Hazırda məlum olub ki, hakimiyyətin daxilində "beşinci kolon" var imiş. İndiyə qədər hakimiyyət bizə "beşinci kolon" deyirdi. Məlum oldu ki, tamam əksi imiş. Hakimiyyətdə bu gün həbs edilən məmurların sayı ictimai xadimlərin sayından daha çoxdur. Bu faciədir. Bütün bunlar onu göstərir ki, vətəndaş cəmiyyətinin həbsdəki üzvləri günahsız olaraq həbsxanalarda yatırlar. İnanıram ki, onların hamısı azadlığa buraxılacaq. Onların yerini isə həbs edilən məmurlar əvəz edəcək".

**Hüquq müdafiəçisi Arzu Abdullayeva ümidlərinin gün-gündən artdığını qeyd etdi:** "Hər əfv olanda bütün xəstə məhbuslar kimi, Hilal Məmmədovun da azad edilməsini istəyirəm. Çünki o da xəstədir. Leyla Yunusun, İntiqam Əliyevin durumu yaxşı deyil. Vətəndaş cəmiyyəti olaraq, bu problemləri daim gündəmdə saxlayırıq. Hər həftə iclaslarımız keçirilir. İlqar Məmmədovu döyən şəxslərin cəzalandırılması üçün aidiyyəti orqana müraciətimiz olub. Həmçinin Tofiq Yaqublu barəsində azadlığa buraxılma qərarının verilməsi istiqamətində işlərimiz sürətlənib. İstərdik ki, hər kəs azadlığa buraxılsın. Arif Yunusu təbrik edirəm. Ümidlərimiz hər an artır. Xanım hüquq müdafiəçilərinin daxili işlər naziri Ramil Usubovla görüşləri zamanı o, məsələnin müsbət həll olunacağını bildirmişdi".

❑ **Cavanşir ABBASLI**

# Əli Kərimlinin AXCP-si qeydə alınmadı

## Ədliyyə Nazirliyi məsələni məhkəmədə həll etməyi tövsiyə edib; **Razi Nurullayev:** "Biz onu tarixə gömdük…"

**AXCP daxilində aylardır davam edən proseslər sona doğru gedir. İki narazı qanadın keçirdiyi qurultayın nəticələri artıq məlum olmağa başlayıb. Ədliyyə Nazirliyi noyabrın 13-də Əli Kərimli düşərgəsinin qurultay sənədlərini geri qaytarıb.**



Ə.Kərimli sənədlərin geri qaytarılması ilə bağlı sosial şəbəkələrdə status paylaşıb. O bildirib ki, hakimiyyət onu AXCP sədri kimi tanımaq istəmir: "Ədliyyə Nazirliyi təqdim etdiyimiz qurultay sənədlərini geri qaytarıb. Bəhanə ediblər ki, Razi Nurullayev də Ədliyyə Nazirliyinə AXCP "Etimad qurultayı" adı ilə sənəd təqdim edib: "Ədliyyə Nazirliyi də "eyni hüquqi şəxsin rəhbər orqanlarının formalaşdırılması barədə bir-birinə zidd olan müraciətlərin daxil olduğunu nəzərə alaraq" təqdim etdiyimiz sənədləri geri qaytarıb. Təklif edib ki, "mübahisəli məsələni" həll etmək üçün məhkəməyə müraciət edək".

Partiya sədri qəbul edilən qərarın heç bir hüquqi əsası olmadığını, rəhbərlik etdiyi qurumun legitim şəkildə fəaliyyət göstərdiyini qeyd edib.

Kərimli R.Nurullayevin vaxtı ilə AXCP üzvlüyündən istefa verdiyini, sonradan özünü partiya sədri kimi təqdim etməsini hüququn tapdalanması kimi qələmə verib.

Kərimli onu da qeyd edib ki, Ədliyyə Nazirliyinin indiki qərarı qurultaylarının nəticələrinin qəbul edilməməsi və onun sədr kimi tanınmaması anlamına gəlmir. O, bunu nazirliyin son qurultaya qədər onu sədr kimi tanıması ilə əsaslandırıb. Kərimli bildirib ki, bu məlumat yenilənənə qədər o, AXCP sədridir.

Ə.Kərimli məhkəməyə müraciət edəcəklərini, tanınmasalar, Avropa İnsan Haqları Məhkəməsinə belə baş vuracaqlarını bildirib.

Bütün bunlar əks tərəfin, yəni Razi Nurullayevin rəhbərlik etdiyi yeni AXCP-nin tamhüquqlu qurum kimi tanınması ehtimallarını gücləndirir. Çünki Ədliyyə Nazirliyi bir tərəfin sənədlərini geri qaytarıb...

**Ədliyyə Nazirliyinin qərarı və əks düşərgə sədrinin ittihamları ilə bağlı R.Nurullayev "Yeni Müsavat"a bunları dedi:** "Ədliyyə Nazirliyinə yeni-yeni sənədlər təqdim etməkdə davam edirik. Sənədlərimiz hələ ki ordadır. Bizmi AXCP-nin təmsilçisi olacağıq, hələ də bilinmir. Bu qərar bizdə ümidlər yaradır. Azərbaycan hakimiyyəti heç olmasa bir dəfə olsun ki, düzgün qərar qəbul edə bildi. Fakt göz önündədir. Bu gün əsl AXCP-ni biz təqdim edirik. Əli Kərimli AXCP sədri olan zamanlarda partiyanın nizamnaməsini dəfələrlə pozub. Qurultayın keçirilməsini bir neçə il ləngidib. Rayon konfranslarını saxta insanlarla edib. Ədliyyə Nazirliyi bunları nəzərə aldı. Sənədlərimiz hüquqşünaslar tərəfindən kifayət qədər yüksək səviyyədə hazırlanıb. Eyni zamanda Kərimlinin qurultayı saxta insanlarla, saxta şəkildə keçirdiyi tərəfimizdən nazirliyə təqdim olunub".

**R.Nurullayev Kərimlinin onlar barəsində səsləndirdiyi ittihamlara da toxundu:** "Əli Kərimli nə deməlidir? Deməlidir ki, Razi Nurullayevi tanıyıram, o, son 20 ildə ən böyük qurultay keçirdi, insanların gözündə ümid işartıları yaratdı? Kərimli hər zaman intriqalar yaratmaq, dedi-qodular gəzdirməklə məşğul olur. Onun istefamla bağlı dediklərinin heç bir əsası yoxdur. Məni qanunsuz şəkildə Əli Kərimli partiyadan getməyə məcbur etmək istədi. Mən onu qabaqladım. Sonrakı mərhələlərdə bunlar da məhkəmə müstəvisinə çıxacaq. Kərimli hər bir cəbhəçiyə etdiyinə, onları getməyə məcbur etdiyinə görə cavab verməlidir. Uğursuz siyasətçinin Azərbaycan siyasətində yeri olmamalıdır. İndiyə qədər cəbhəçiləri həbs etdirməklə məşğul olub. Özü normal, cəbhəçilər isə ağır şəraitdə yaşayıb. Yenə də AXCP sədrliyinə iddia edir. Hansı haqla? Heç bir halda cəmiyyət adına müsbət ad gətirməyib. Bu baxımdan onun əlindən AXCP adını almağa məcbur idik. Onun nədənsə danışmağa haqqı yoxdur".

**Müsahibimiz Ə.Kərimlinin hakimiyyəti onu AXCP sədri kimi tanımamaqda suçlamasına da cavab verdi:** "AXCP-də sədr 4 ildən bir seçilir. Kərimli sədrlik müddətini çoxdan başa vurmuşdu. Qəzetiniz vasitəsilə mətbuata müraciət edirəm ki, indiyə qədər məni Razi Nurullayevin başçılıq etdiyi AXCP sədri kimi təqdim etmisiniz, bundan sonra Əli Kərimlini də belə təqdim edin. Çünki o, AXCP-nin hüquqi təmsilçisi deyil".

**Yeni AXCP-nin sədri Ədliyyə Nazirliyinin onlar barəsində də buna bənzər qərar çıxaracağı ehtimallarından da söz açdı:** "Sənədlərimizin geri qaytarılması da, qeydiyyatımız da ola bilər. Nazirlik bu barədə qərar verəcək. Biz tanınsaq, Kərimli məhkəməyə müraciət edə bilər. Nazirliyin açıqlamasında bizi 50% tanıma, 50% də sənədləri geri qaytarma ehtimalları var. Əli Kərimli statusunda qeyd edir ki, yenə də lider olaraq qalacam. Xalqın onu sevdiyini bildirir. O, xalqın sevgisini çoxdan unudub. Kərimli adı xalqın hafizələrindən silinib. Ona heç yerdə rast gəlmirəm. O, "zombi"lərinin paylaşımları əsasında fəaliyyət göstərən şəxsdir. Ətrafında VİFİ şəbəkəsi qurub. VİFİ bir məhdud dairədə mövcud olur. Kərimli də bax belə məhdud dairədə fəaliyyət göstərir. Onun təşkil etdiyi mitinqlərdəki insanların sayı nüfuzunun nə yerdə olduğunu açıq şəkildə göstərir. Əli adını xalq artıq qəbul etmir. İnsanların onu görməkdən gözləri doyub. Görməsələr veclərinə deyil, bizim də vecimizə deyil. Onun özü deyib, özü eşidir. Biz onu tarixə gömdük. Oradan da çıxarmaq fikrində deyilik".

❑ **Cavanşir ABBASLI**



# Ermənіyə G20 zərbəsi

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**Sabah Türkiyənin kurort şəhəri Antalyada "Böyük iyirmilər"in (G 20) 10-cu sammiti öz işinə başlayacaq. İki gün çəkəcək tədbirə qardaş ölkə ilk dəfə ev sahibliyi edəcək, bunun ardınca bir il G20-nin koordinatoru missiyasını yerinə yetirəcək. Ancaq zirvə toplantısının Türkiyə ilə bağlı digər mühüm özəllikləri də var.**

Tədbir sözsüz ki, ən əvvəl qardaş ölkənin bölgədə və dünyadakı vazkeçilməz rolunun və qüdrətinin nümayişi, qlobal siyasətin mərkəzlərindən biri olmasının etirafı ilə yadda qalacaq. Onun gücünə güc qatacaq. Türkiyə isə sammitə 1 noyabr parlament seçkilərindən sonra daha güclü və legitim hakimiyyətlə gedir. Bundan əlavə, zirvə toplantısı Ankaranın ölkə daxilində PKK terroru ilə mübarizəsini davam etdirmək üçün yeni əlavə stimul yarada, ona hətta kart-blanş verə bilər.

Sammit Azərbaycan üçün də önəmli mesajlarla yadda qala bilər. Məsələ ondadır ki, tədbirdə ölkəmiz yeganə fəxri qonaq statusunda olacaq. Prezident İlham Əliyevin 19 aparıcı dövlət və Avropa Birliyi rəhbərləri ilə eyni tədbirdə yer alması Azərbaycana müəyyən siyasi və psixoloji dividentlər, üstünlüklər qazandıra bilər, əgər təbii ki, fürsətdən lazımınca istifadə olunsa, dünya liderləri ilə təmas imkanlarından maksimum fayda götürülsə.

Söhbət öncəliklə əsas problemimiz olan Dağlıq Qarabağ məsələsindən gedir. Doğrudur, sammitin gündəliyində Qarabağ mövzusu yoxdur. Ancaq qəbul ediləcək yekun bəyannamədə postsovet məkanındakı həll olunmamış münaqişələrlə bağlı böyük ehtimalla, müddəa yer alacaq.

Çox vacibdir ki, fəxri qonaq kimi Azərbaycan sənəddə Güney Qafqazın ən üzücü ixtilafı sayılan Dağlıq Qarabağa dair G20-nin ədalətli mövqeyinin əks edilməsinə nail olsun. Necə ki, analoji mövqelər indiyədək Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının (AŞ PA), NATO Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının qətnamələrində artıq təsbit edilib.

Belə sənədlərin çoxalması problemin həllinə birbaşa töhfə verməsə də, hüquqi (məcburi) xarakter daşımasa da, Azərbaycanın öz haqlı mövqeyini dünyada irəli aparmaq və Minsk Qrupu həmsədrlərini obyektiv mövqeyə qaytarmaq, işğalçı Ermənistanı narahat eləmək üçün çox vacibdir.

Üstəlik, unutmaq olmaz ki, G20 - həmsədr ölkələrin hər üçünün daxili olduğu azsaylı formatlardandır. Bakı bu yöndə istəyinə ev sahibi kimi həm Türkiyə, həm də toplantı çərçivəsində reallaşacaq iki və çoxtərəfli görüşlər hesabına çata bilər. Nəticə etibarilə işğalçı ölkə, onun gizli-açıq rəğbətçiləri növbəti dəfə fakt qarşısında qoyular. Ermənistanın sammitə hər hansı formada qatılmaması bu yöndə Bakı və Ankaraya əlavə psixoloji üstünlüklər yaradır.

Müxtəsəri, Antalya sammiti işğalçı Ermənistana G20 zərbəsi vurmaq üçün unikal fürsət yaradır. Rəsmi Bakı bu fürsəti qaçırmamalıdır. AŞ PA Siyasi Komitəsindən təzəcə Qarabağ zərbəsi alan işğalçı Ermənistan əlbəttə ki, proseslərin bu cür inkişafını arzulamır və Azərbaycanın sammitdə fəxri-qonaq statusunda iştirakından, yumşaq desək, məmnun deyil.

İrəvan həm də o səbəbə məmnun deyil ki, sayı artan bu cür sənəd-kommunikelər Qarabağ məsələsinin həllində beynəlxalq hüquqa söykənmək üçün əsasları gücləndirir, vasitəçiləri də, təcavüzkarı da fakt qarşısında qoymaqla onların məsələdə Bakının ziyanına manevr imkanlarını daradır. AŞ PA Komitəsinin məlum qərarından ermənilərin narahatlıq keçirməsi bu reallıqdan qaynaqlanır.

Antalya zirvəsi təcavüzkarı daha rahatsız duruma salmaq üçün növbəti qiymətli şansdır. Bu şansı rəsmi Bakı sammit ərəfəsində ölkə daxilində müəyyən islahatlar aparmaq və siyasi məhbusları azadlığa buraxmaqla xeyli gücləndirə də bilərdi.

# İsa Qəmbərin MSDM-ində Pənah Hüseyn "üsyanı"

## AXP lideri: "Barak Obamaya, Angela Merkelə əriştə kəsməkdən əvvəl bizə umac ovun"

**Redaksiyamıza noyabrın 12-də İsa Qəmbərin rəhbərlik etdiyi Milli Strateji Düşüncə Mərkəzinin keçirdiyi dəyirmi masada AXP sədri Pənah Hüseynin qalmaqal yaradan çıxışı barədə informasiya daxil olub. Mənbənin dediyinə görə, Pənah Hüseyn çıxış edərkən "siyasi müxalifətin durumu, indiki böhranlı vəziyyət üçün başlıca məsuliyyət müxalifətin ən iri fiquru olan İsa Qəmbərin üzərinə düşür", - ifadəsini işlədib.**

Ardınca təklif edib ki, İsa Qəmbər səbəb olduğu vəziyyətdən çıxmaqda maraqlıdırsa, fəal siyasi fəaliyyətə qayıtsın. Bu zaman Müsavat başqanı Arif Hacılı yerdən "Bəs iki gün qabaq deyirdin ki, lider mənəm" replikasını atıb. Pənah Hüseynin replikaya cavabı isə gözlənilməz sərt-kobud tərzdə olub: "Mən müxalifətin lideri yox, ən iri fiquru dedim, ümumiyyətlə isə sən İsa Qəmbərin vəkilisən?!"

P.Hüseyn çıxışını davam edərək daha da sərtləşib. O müzakirəyə çıxarılmış mövzunu (Türkiyədə keçiriləcək G 20 sammiti ilə bağlı) tənqid edərək, "Barak Obamaya, Angela Merkelə əriştə kəsməkdən əvvəl bizə umac ovun", deyib. Daha sonra "İzah edin, necə olur ki, qat- qat repressiv rejim olan, siyasi təşkilatların demək olar ki,



Pənah Hüseyn

olmadığı Cənubda (Güney Azərbaycanda) on minlərlə insan öz haqq və hüquqları uğrunda meydana atılır, bizdə isə ən böyük partiyaların ümumrespublika mitinqinə 300-500 adam gəlir. Necə olur ki, siyasi təcrübəsinə, intellektual potensialına görə iqtidar komandasından geri qalmayan müxalifət vəziyyətin əlində əsir qalıb? Mənim seçki kampaniyam göstərdi ki, öləziyən xalq yox, siyasi müxalifətdir. Allah müxalifətdəkilərə ağıl versin" fikirləri ilə sözünü yekunlaşdıran P.Hüseynin sondakı cümləni xüsusilə əsəbi tonda səsləndirdiyi bildirilir. Mənbənin dediyinə görə, İsa Qəmbər çıxışla bağlı diskussiya açılmasına imkan verməyib.

Maraqlıdır ki, MSDM- in dəyirmi masası barədə məlumat yayan Müsavat rəhbərliyinə yaxın saytlar nə Pənah Hüseynin çıxışından heç nə yazmayıb, nə də onun orada olmasını göstərən şəkillər belə, yerləşdirməyib. Odur ki, məsələyə aydınlıq gətirmək üçün Pənah Hüseynin özünə müraciət etdik. Pənah Hüseyn suallarımıza cavab olaraq göstərilən tədbirə qatıldığını, orda çıxış etdiyini, yuxarıda qeyd elədiyimiz fikirlərə bənzər sözləri çıxışının kontekstində səsləndirdiyini əsasən təsdiqlədi. Əlavə etdi ki, o, tədbirə VHP-də cənub hadisələrinə həsr edilən tədbirdə iştirakı ilə bağlı gec qatılıb. Ona görə arxa sıralarda əyləşib. Ola bilsin buna görə obyektivə düşməyib.

Tədbirdən hazırlanan reportajda adının və çıxışından heç bir cümlənin verilməməsinə isə P.Hüseyn "İstənilən hadisə barədə necə məlumat vermək hər bir kütləvi informasiya vasitəsinin hüququdur, mənim bir iradım yoxdur", deyərək münasibət bildirdi.

P.Hüseyn eyni zamanda vurğuladı ki, MSDM-in keçirdiyi dəyirmi masa ümumiyyətlə maraqlı idi, xeyli bilgi və düşüncə üçün material verdi.

❑ Etibar SEYİDAĞA

# Müxalifətin tələblərinə hakimiyyətdən cavab gəldi

## İqtidar MSDM-in G20 sammiti öncəsi qaldırdığı 5 məsələni qəbul eləmir; **Aydın Mirzəzadə:** "Mərkəzin tələbləri açıq qapını israrla döyərək açmağı istəməkdir..."

**Noyabrın 12-də Müsavat Partiyasının qərargahında Milli Strateji Düşüncə Mərkəzi noyabrın 15-16-da Türkiyədə keçiriləcək G20 sammiti ilə bağlı tədbir keçirib. Toplantıda sammitdə iştirak edəcək Azərbaycan hakimiyyəti qarşısında 5 tələb irəli sürülüb.**

MSDM G20-nin sammitinin keçiriləcəyi günə qədər irəli sürdüyü təkliflərin həyata keçirilməsini hakimiyyətdən tələb edib. Müxalifətin irəli sürdüyü 5 təklif bunlardır:

*1.Bütün siyasi məhbusların azad edilməsi;*

*2.2015-ci il 1 noyabr tarixli parlament seçkilərinin nəticəsinin rəsmiləşdirilməməsi və yaxın müddətdə yeni seçkilərin keçiriləcəyinin bəyan edilməsi;*

*3.Azərbaycanda əsas siyasi və iqtisadi azadlıqların bərqərar edilməsi ilə bağlı kursun bəyan edilməsi;*

*4.Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasına uyğun olaraq, ölkəmizin avroatlantik məkana inteqrasiya istiqamətində addımlar atacağının bəyan edilməsi, Avropa İttifaqına, NATO-ya üzvlüklə bağlı müraciət edilməsi və Ümumdünya Ticarət Təşkilatı ilə üzvlük danışıqlarının sürətləndirilməsi;*

*5. Beynəlxalq birliyin diqqət mərkəzində olan geosiyasi mövzularda, Ukrayna, Suriya kimi münaqişə məsələlərində aydın və birmənalı mövqe bildirilməsi.*

Hakimiyyətdən təkliflərə münasibət aldıq. **YAP-ın şöbə müdiri, deputat Aydın Mirzəzadə** hesab edir ki, tanınmayan bir qurumun iqtidar qarşısında təkliflər irəli sürməsi qəribədir: "Qeyd etdiyiniz qurum ölkəmizdə tanınmayan, gündəmdə olmayan bir strukturdur. Bu qurumun hansısa təkliflər irəli sürməsi, hakimiyyət qarşısında tələblər qoyması çox qəribə görünür. Seçkinin nəticələrinin tanınmaması, siyasi məhbus adlı şəxslərin məhkəməsiz həbsdən azad edilməsi tələbləri qanunsuzdur. Demokratik şəraitdə seçki keçirilib, MSK yaxınlarda nəticələri elan edəcək. Birdən-birə heç bir funksiyası olmayan struktur hakimiyyətdən konstitusiyanın tələblərinin dayandırılmasını tələb edir. Bu tələbi irəli sürənlər Azərbaycanın hüquqi dövlət olduğunun, ölkəmizin konstitusiya ilə yaşadığının fərqinə varmalıdırlar. İrəli sürdükləri tələblərin doğru olub-olmadığı barədə özlərinə sual verməlidirlər. Azərbaycanda siyasi məhbus yoxdur, törətdikləri əməllərə görə həbs edilmiş insanlar var. Onların məhkəmələrdə günahları sübut olunub və hazırda cəzalarını çəkirlər. Azərbaycanın NATO, Avropa İttifaqına üzv olması ilə bağlı tələblərə gəlincə, bu, sadəcə, mərkəzin mövqeyidir. Ölkəmizdə yüzlərlə müxtəlif mövqeləri olan mərkəz ola bilər. Hakimiyyət vətəndaşlardan aldığı mandat əsasında siyasətini yeridir, hansısa mərkəzin qarşısına qoyduğu tələbləri yeri-



Aydın Mirzəzadə

nə yetirməklə məşğul olmur. Digər təşkilatlar da bu cür tələblər irəli sürə bilərlər. Sadəcə, irəli sürülən təkliflərin konstitusiya ilə uyğun olub-olmadığını düşünmək lazımdır. Avrointeqrasiya ilə bağlı ölkə rəhbərliyinin mövqeyi var. Azərbaycan bu gün milli maraqlarına uyğun siyasət yeridir. Maraqlarımız haradadırsa, Azərbaycan oradadır. Ölkəmiz bu gün bütün beynəlxalq təşkilatlar, ölkələrlə xarici siyasətini qurub və uğurla aparır. Düşüncə Mərkəzi tələbləri düzgün sayırsa, ilk növbədə, seçkilərdə iştirak etsin, hakimiyyətə gəlsin. Ondan sonra proqramlarını həyata keçirə bilərlər. Kənardan üç nəfərin iclas keçirərək, milyonlarla vətəndaşın səsini qazanmış hakimiyyətdən tələblər etməsi dünya praktikasında yoxdur. Nədənsə bu hallara daha çox Azərbaycanda rast gəlinir".

**İqtidar təmsilçisi müxalifətin Ukrayna və Suriya məsələsi ilə bağlı tələblərinə də toxundu:** "Həmin mərkəzin nümayəndələri Azərbaycanın xarici siyasəti ilə tanış deyillər. Ukrayna və Suriya məsələsində ölkəmizin aydın mövqeyi var. Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirik. Hesab edirik ki, Ukraynanın ərazi bütövlüyü məsələsində Azərbaycan onların yanındadır. BMT-dəki səsvermədə Azərbaycan bu məsələnin lehinə səs verib. Suriyada vətəndaş müharibəsi gedir. Suriya məsələsində Azərbaycan legitim hakimiyyəti tanıyır. Orada gedən proseslərin tezliklə həll edilməsində maraqlıdır. Vəzifəli şəxslərimizin bununla bağlı dəfələrlə mövqeləri olub".

**A.Mirzəzadə tələblərdə öz əksini tapan siyasi və iqtisadi azadlıqlardan da danışdı:** "Bu tələblərlə böyük səhvə yol verirlər. Belə təsəvvür yaranır ki, həmin insanların iqtidarın apardığı siyasətdən xəbərləri yoxdur. Azərbaycanda siyasi-iqtisadi fəaliyyət azadlığı var. Son dövrlərdə MTN-lə bağlı gedən proseslər onu göstərdi ki, Azərbaycan hakimiyyəti sahibkarlığın, insan hüquq və azadlıqlarının qorunmasında qətiyyətlidir. Qeyri-qanuni hərəkətlərə yol verən istənilən şəxslər cəzalarını alırlar. Bu məsələdə cənab prezidentin, hakimiyyətin mövqeyi birmənalıdır. Azərbaycanda istənilən sahədə azadlıqlar var. Mərkəzin tələbləri açıq qapını israrla döyərək açmağı istəməkdir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 253 (6281) 14 noyabr 2015

**"MTN-də məni müalicə edən həkimə minnətdarlıq eləmək istəyirəm. Orada sağ qaldımsa, həmin həkimin hesabına oldu. Hələ həbsdə olarkən düşünürdüm ki, bir gün mənə MTN-lə bağlı sual verib fikirlərimi soruşsalar, ilk növbədə həmin həkim xanım haqda danışacam. Həm peşəkar həkimdi, həm də insanlığı var". Bu sözləri "Azadlıq" qəzetinə müsahibəsində ötən gün haqqında həbs qərarı dəyişdirilən siyasi məhbus Arif Yunus deyib.**

# MTN-dəki həkim qız kimdir...

## Həbsxanalarda insaflı tibb işçisinə rast gəlmək niyə sensasiya sayılır?

Yada salaq ki, Arif Yunus uzun illərdir hipertoniyadan əziyyət çəkir. Həbsə düşməmişdən öncə də səhhəti ilə bağlı ciddi problemlər yaşayan Arif Yunusun özü və həyat yoldaşı Sülh və Demokratiya institutunun rəhbəri Leyla Yunus həbs ediləndən sonra səhhətində daha ciddi problemlər yaranmağa başlayıb və o, həbs şəraitində davamlı müalicə alıb. Həbsdən çıxdığı gün də Arif Yunusun səhhəti pisləşib. Yunusların ailə dostu və onları məhbəsdə də tək qoymayan hərbi ekspert Azad İsazadə deyib ki, Arif Yunusun axşam saatlarında təzyiqi yüksəlib və həkimlərin müsaxiləsinə baxmayaraq təzyiqi normaya salmaq hələlik mümkün olmayıb.

Həbslərindən bir müddət sonra Yunusları müayinə etmək üçün Almaniyadan da həkim dəvət edilmişdi. Leyla Yunus Penitensiar Xidmətin həkimlərinə etibar etmədiyi üçün Avropa İttifaqının müraciəti əsasında 2014-cü ilin dekabr ayından Yunusların Almaniyanın "Charite" xəstəxanasındak həkimləri professor Kristian Vittin və onun rəhbərlik etdiyi həkim qrupunun müayinəsi altında olub.

Arif Yunusun haqqında danışdığı həkim xanım Milli Təhlükəsizlik Nazirliyi təcridxanasının həkimidir. Onun kimliyi bizə bəlli olmasa da Arif Yunusun dediklərindən peşəsinə sadiq insan olduğu aydındır.

Həm Azərbaycan, həm də dünya praktikasında məhbusların saxlandıqları müəssisənin həkimlərinə etibar etməməsi ilə bağlı faktların sayı-hesabı yoxdur. Məhbusların bu yanaşması səbəbsiz deyil, təbii. Həbsində siyasi səbəblər olan insanlar qapalı müəssisələrdə asanlıqla "zərərsizləşdiriləcəklərindən" ehtiyat edərək həkim xidmətlərindən imtina edirlər. Çünki dünya praktikasında diş həkiminin bir iynəsindən, təzyiqin qəfil qalxmasından, eləcə də daxili orqanlarda yaranan qısamüddətli xəstəliklərdən "gedən" siyasi məhbusların sayı az deyil.

Praktika həm də onu göstərir ki, siyasi məhbusların həkimə ehtiyacı digər məhbuslardan daha çox olur. Cinayətkar mühitə yad olan şəxslərin qəfildən bu mühitə, fəal ictimai-siyasi fəaliyyəti olan insanların qapalı mühitə düşməsi onlarda ürək-damar, sinir sistemi xəstəlikləri əmələ gətirir. Saxlanma şəraitindəki çatışmazlıqlar, eləcə də yaş da bu məsələdə səhhəti pisləşdirən ciddi faktorlar olaraq çıxış edir.



**Həm özünün, həm də atası siyasi məhbus Tofiq Yaqublunun təcrübəsindən məhbəs mühitinə bələd olan Nigar Yaqublu deyir ki, "içəri"də keyfiyyətli tibb xidməti almaq şans məsələsidir:** "Sözsüz, insanın canı ağrıyanda həkimə xilaskar kimi baxır. Ancaq məhbəs həyatı elədir ki, istər-istəməz şübhə içərisində olursan. Əcəba, diaqnoz düzgün qoyuldumu, dərmanlar düzgün təyin edildimi, hətta bu həmin dərmandırmı? Səksəkə içərisində olursan. Buna məhbusluq halı deyək. Ancaq elə durum da yarana bilər ki, məhbusun təklif olunan tibb xidmətini qəbul etməkdən başqa çarəsi qalmaz. Məhbəsdə ciddi müalicədən söhbət gedə bilməz. Buna ilkin tibbi yardım demək daha doğrudur. Adətən həkimlər məhbusun təzyiqini ölçür, ya da yüngül ağrıkəsicilər verirlər - orada nə diaqnostika aparatı, nə də güclü həkim olmur. "İçəridə" hansısa ciddi diaqnoz qoyulub müalicəyə başlanmasından söhbət gedə bilməz. Əgər səhhət pisləşsə, məhbuslar tibb müəssisəsinə köçürülür".

**Nigar Yaqublu deyir ki, atası Tofiq Yaqublunun səhhəti ailənin yaşadığı ard-arda stresslər səbəbindən axır aylarda çox korlanıb. Üstəlik, Tofiq Yaqublunun saxlandığı 13 saylı cəzaçəkmə müəssisəsinin ekoloji cəhətdən çox kirli bir ərazidə yerləşməsi, ətrafdakı daş karxanalarının küləklə gələn tozu onun ağ ciyərlərində ciddi problemlər yaradıb:** "Atam astma xəstəliyinə tutulub. 1 həftə evdə olanda öskürəkdən nəfəs ala bilmirdi. Ağ ciyərindəki problemlər, eləcə də yaşadığımız faciə atamın ürəyini də xəstələndirib. Keçmiş səhiyyə naziri Əli İnsanov həmin cəzaçəkmə müəssisəsində olmasaydı, atamın durumu son dərəcə ağır olardı. Çünki oradakı həkimlər atamı sağalda bilməyəcəkdilər. "Əli əminin - Yaqublular keçmiş səhiyyə nazirini belə çağırır - atama yazdığı reseptləri təcridxananın tibb bölməsinin həkimləri yoxlayır, ondan sonra isə atama həmin dərmanları qəbul etmək icazəsi verilir".

**Nigar Yaqublu Əli İnsanovla bağlı maraqlı bir faktı da danışır:** "Bildiyimə görə, Əli İnsanov təkcə atama yox, ona müraciət edən digər məhbəs yoldaşlarına, hətta onların ailə üzvlərinə kömək edib. Elə insanlar var ki, uzun illərdir məhbəs həyatı yaşayırlar. Orqanizm getdikcə sıradan çıxır. İronik alınsa da deyim ki, Əli İnsanovun məhbəs yoldaşlarını bu sarıdan bir qədər "şanslı" saymaq olar. Atam danışır ki, məhbuslardan birinin ailə üzvü çox ağır xəstə idi. Həmin şəxs Əli İnsanova bu haqda danışandan sonra uzunmüddətli bir proses başlanıb, o, xəstəyə çoxlu suallar yazıb, simptomları öyrənmək üçün ağrıları, keçirdiyi durumları ətraflı izah eləməsini istəyib və müəyyən preparatlar məsləhət görüb. İndi həmin şəxsin səhhəti yaxşılaşıb".

**Məhbəsdə olan bütün siyasi məhbuslara azadlıq arzusu ilə...**

❑ Aygün MURADXANLI

# Laçın sakinindən icra başçısına ağır ittihamlar

## Qarakeçid kənd sakini Akif Səlimovu rüşvət almaqda, rayonun büdcəsini talamaqda suçlayır

**Laçın rayonu Qarakeçid kənd sakini Yapon Məmməd oğlu Məmmədov rayonun icra başçısı Akif Səlimovdan şikayətçidir. Şikayətçi müxtəlif instansiyalara müraciət etməklə yanaşı, "Yeni Müsavat" qəzetinə də şikayət məktubu ünvanlayaraq, problemin ictimailəşdirilməsini istəyib.**



Yapon Məmmədov

Şikayətçi iddia edir ki, Laçın rayon icra başçısı Akif Səlimovun qeyri-qanuni əməlləri var: "Akif Səlimovun rüşvət cədvəlini tərtib etsək, çox geniş alınar. Odur ki, qısa məlumat verim: Məktəb direktorları sinif komplektindən asılı olaraq 5 min manatdan-20 min manata qədər, idarə müdirləri də bu qaydada 10 min manatdan 70 min matanadək, texniki işçilər 700-1000 manat Akif Səlimova rüşvət verməlidirlər. Eyni zamanda Laçın rayonuna dövlət tərəfindən ayrılan pulların da bir hissəsi müxtəlif yollarla Səlimov tərəfindən mənimsənilir. "Taxta körpü" ərazisində yaşayan Laçın sakinlərinin əksəriyyətinin həyat şəraiti çox acınacaqlıdır. Ancaq Akif Səlimov o şəraitdə yaşayan insanların gözünün qarşısında özünə mişar daşından böyük fermalar tikdirib. Özü üçün şəxsi təsərrüfat yaradıb. Rayonun təsərrüfat texnikasının vasitəsi ilə böyük göllər tikdirib. Orada müxtəlif sort balıqlar saxladır. 2015-ci ilin iyun ayında dövlət büdcəsindən Laçın rayonuna əkin üçün 170 min manat subsidiya ayrılıb. Guya 3400 hektar yer əkilib. Reallıqda isə heç qeyd olunan rəqəmin beşdə biri qədər də yer əkilməyib. Həmin vəsaitin çox hissəsi müxtəlif əyri yolla Səlimovun cibinə axıb".

Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq.

❑ Əli RAİS

# Ailəsi qaçqın statusu almış Emin Hüseynovun yanına getməyə hazırlaşır

## Mehman Hüseynov: "İndi valideynlərim dəqiqləşdirirlər ki, ölkədən çıxışlarına qadağa var, ya yox"

**Xəbər verdiyimiz kimi, Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) keçmiş rəhbəri, hüquq müdafiəçisi Emin Hüseynov İsveçrədən siyasi sığınacaq alıb. Emin Hüseynovun vəkili Marsel Basonnet onun müdafiə etdiyi şəxsin Miqrasiya məsələləri üzrə Dövlət Katibliyindən (SEM) siyasi sığınacaq barədə müsbət cavab aldığını açıqlayıb. İsveçrə hökuməti Hüseynova "öz ölkəsindəki siyasi vəziyyətə görə" qaçqın statusu verib.**



Emin Hüseynov

E.Hüseynovun qardaşı Mehman Hüseynov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu xəbəri qəzetdən oxuyub. Qardaşı ilə ötən həftə danışdıqlarını deyən müsahibimiz onun durumunun yaxşı olduğunu vurğuladı: "Emin müalicə alırdı. Hər il xaricdə müalicə alırdı, sistematik olaraq. Bilirsiz ki, 2003-cü ildə mitinqdə belini zədələmişdilər. Müalicəsi bu istiqamətdə idi".

M.Hüseynov bildirdi ki, valideynləri E.Hüseynova baş çəkmək istəyirlər. Amma ölkədən çıxışlarına qadağa qoyulub-qoyulmaması ilə bağlı məsələni aydınlaşdırmağa çalışırlar: "Mənim çıxışıma isə qadağa var. Artıq 4-cü ildir ki, ölkədən çıxmıram. Müraciət də eləmişəm, amma cavab olaraq bildirildi ki, icazə vermirlər".

Müsahibimiz dedi ki, E.Hüseynov orada həyat yoldaşı ilə birgə yaşayır.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 253 (6281) 14 noyabr 2015



# Gürcü dolanbacları...

Hüseynbala SƏLİMOV

**Bir az soyuq, bir az da çiskinli hava daha çox gürcü xəngəli haqqında "düşüncə"lərə sövq etsə də bu ölkənin həyatında və siyasətində indi baş verən proseslər heç də bundan az maraq kəsb etmir...**

Bir tərəfdən "Gürcü arzusu" koalisiyası içində prezident G.Margelaşvili ilə hərəkatın "xaç atası" B.İvanişvili arasında baş verən ixtilaf, digər tərəfdən, bir çoxlarına yaxşı tanış olan "Rustavi-2" kanalı ətrafındakı məhkəmə prosesləri, o bir tərəfdən də ölkə siyasətində ilk debütünü etməyə başlayan "Gürcü vətənpərvərləri alyansı" düşünmək üçün yetərincə predmet verir...

Etiraf etmək lazımdır ki, ölkə kövrək siyasi tarazlıq halındadır. Ən əsası isə odur ki, növbəti ildə parlament seçkiləri olmalıdır...

Əksər müşahidəçilər bu fikirdədir ki, "Gürcü arzusu" koalisiyası seçkini yalnız bir səbəbə görə uda bilər. O da budur ki, insanların əksəriyyəti M.Saakaşvilinin "Vahid Milli Cəbhə"sinə elə də rəğbət bəsləmirlər, üçüncü bir siyasi qüvvə isə yoxdur. Amma üçüncü siyasi qüvvənin olmaması ilə bağlı deyilənlər bir qədər tələsik nəticədir. Ona görə ki, yenicə formalaşmağa başlayan "Gürcü vətənpərvələri alyansı" yetərincə iddialı görünür...

Gürcüstan kiçik olduğu qədər də maraqlı ölkədir. Həm də ona görə maraqlıdır ki, bu ölkəyə bilavasitə hakimiyyətdə olmayan B.İvanişvili "boz kardinal"lıq edir. Mən bu adama gürcülərin həqiqi münasibətini çox da yaxşı bilmirəm. Gəl, onun fərqindəyəm ki, indi bu münasibət bir o qədər də ürəkaçan deyil - o səbəbdən ki, gürcü arzusu nəinki çin olmadı, üstəlik ölkəyə bir az da məyusluq və bəlkə də peşimançılıq (seçkilər vaxtı bu, aydınlaşacaq!) gətirdi.

Gürcü cəmiyyətini siyasi cəhətdən yetərincə səriştəli hesab edirdim. Bəli, insanlar əslində nə etdiklərini, nə istədiklərini bilirlər. Gürcüstan da aqrar bir ölkədir və bu ölkənin əsas bazarı Rusiyadır. İnsanlar bu bazarın qayıtmasında maraqlı idilər. Bu, onlara nə qədər müəssər oldu-olmadı, bunu kifayət qədər yaxşı bilmirəm...

Düşünürəm ki, gürcü elektoratı "Gürcü arzusu"nun seçki ritorikasını hərfi mənada qəbul etmirdi. Onlar güman ki, düşünmürdülər ki, sovet dövründən qalmış zavodları işə salmaq B.İvanişvilinin dediyi kimi asan olacaq. Amma bu elektoratın "Gürcü arzusu"na hansısa fəlsəfi mülahizələrdən səs verməsi də elə də inandırıcı görünmür - hər halda, müəyyən ümidlər vardı, çox təəssüf ki, onlar doğrulmadı...

B.İvanişvili indi İranla ciddi əlaqələrin vacibliyini deyir. O bildirir ki, İran qazı da Gürcüstana gəlsə çox yaxşı olar. Olsun. Amma bu vaxta qədər bu ölkə qazı İrandan və ya Rusiyadan deyil, Azərbaycandan alıb. İvanişvili bunun fərqində olmaya bilər, amma gürcülər olmalıdır...

Doğrusu, Gürcüstan İran qazını Avropaya çıxarmaq üçün o qədər də ideal bir marşrut deyil. Həm də hələ dəqiq məlum deyil ki, İvanişvili İran qazını Gürcüstana "toplamaqla" onunla nə etmək istəyir?..

Qərəz, Gürcüstan suallarla dolu ölkədir. Biz də çox istəyirdik və indi də istəyirik ki, bu ölkəyə sülh və əmin-amanlıq gəlsin, insanların rifahı yüksəlsin.

Həm də istəməzdik ki, Gürcüstanı yalnız Azərbaycanın qazı cəzb etsin. Bu ölkə ilə dostluq Azərbaycanın maraqlarına cavab verir...

Amma gürcü cəmiyyətində həmişə bir "dikbaşlıq" hökm sürüb və bunu indi də sezmək mümkündür - bu gün işlər yaxşı gedirsə hamı dərhal dünəni unudur. Təbii, bu, elə də yaxşı keyfiyyət deyil. Azərbaycan Gürcüstana etdiyi yaxşılıqların müqabilində çılğın minnətdarlıq da tələb etmir, amma unutqanlıq da yaxşı hal deyil...

Bizim üçün Gürcüstan yenə də Avropaya əsas qapı kimi qalır. Amma gürcülər də Azərbaycanın bu marağını istismar etməməlidirlər...

Nə isə. Baxaq, görək, bu işlərdən nə alınır? Hər halda, yaxşı olar. Bunun üçün isə hər iki tərəfin bir qədər praqmatik olması yetər... Praqmatizm bu mürəkkəb dünyanın dolanbaclarından baş çıxarmaq üçün bəlkə də yeganə fəlsəfədir...

Əslində biz böyük sevgi də tələb etmirik. Sadəcə, münasibətlərdə xoş niyyət və xoş məram yetər. Gürcüstanı biz azadlığa meylli olmasına görə sevirik. Bir məsələ həmişə diqqət çəkib: gürcülər Qafqazda daim Avropaya can atan ölkə olublar. Bu canatım indi də sezilir. Amma bunun qarşılığı yoxdur. Elə o səbəbdən yeni və etibarlı tərəfdaş tapmamış köhnə dostları itirmək olmaz. Bu bölgədə Gürcüstanın ən böyük dostu isə Azərbaycandır...

# MTN-in həbs etdiyi məhbuslar azad edilə bilərmi?

## Zahid Oruc: "Söyləmək çətindir ki, hansı QHT rəhbərlərinə qarşı şəxsi qisasçılıq hisləri ilə davranıblar, yaxud..."

**Son zamanlar ölkədə "MTN işi" kontekstində baş verən həbslər, hakimiyyətin daxilində onlarla ona qarşı çıxanların, xəyanət edənlərin olduğunu göstərdi. Bu faktı iqtidar nümayəndələri də təsdiq edirlər ki, "MTN işi" çərçivəsində həbs olunanlar, əslində dövlət daxilində çətə quraraq, qeyri-qanuni işlər görüblərmiş.**




Lakin maraqlı hal budur ki, elə bu gün həbs olunanların bir çoxlarının apardıqları əməliyyat nəticəsində Azərbaycanda media nümayəndələri, Qeyri Hökumət Təşkilatlarının (QHT) rəhbərləri ağır ittihamlarla məhbəsə salınıb. Həbsdə olan ictimai sektorun nümayəndələrinin bir qismi dövlətə xəyanət etməkdə günahlandırılıb. "MTN işi" göstərdi ki, dövlətə ən böyük xəyanət edənlər, QHT-lərdə yox, ölkə üçün əhəmiyyətli dövlət sturukturlarında çalışanlar olub.

Belə olan təqdirdə, Azərbaycan iqtidarı həbsdə olanlara qarşı siyasətini dəyişə bilərmi?

**Məsələ ilə bağlı "Yeni Müsavat"a deputat Zahid Oruc danışıb. O bildirib ki, hazırkı hadisələrə daha aydın nəzərlərlə baxmaq üçün zamana ehtiyac var:** "Son zamanlar adı çəkilən strukturların dünya çapında da fəaliyyəti birmənalı olmayıb. Misal üçün, Amerikanın həyatına nəzər salarkən görməkdəyik ki, hələ Con Kennedi dövründə Mərkəzi Kəşfiyyat İdarəsinin başçısı ölkənin içərisində elə bir xəfiyyə strukturu formalaşdırmışdı ki, o, dövlət içərisində real dövlətə çevrilmişdi. Azərbaycanda da sanki belə bir "paralel yapı" mövcud olub. Onlar bütün işlərə elə barmaqlar uzadıblar ki, həm iqtisadi sferada, həm siyasi həyatda, həm də vətəndaş-dövlət, media-hakimiyyət əlaqələrində xeyli anlaşılmazlıqlar yaradıblar. İndi bu kimi problemləri ortadan qaldırmaq üçün çox dəqiq işləmək lazımdır. Elə proqramlar tərtib etmək lazımdır ki, dövlətin bu sahədə fəaliyyətini hüquq müstəvisinə gətirərkən, ortada cinayətkarlar xüsusi bir nəfəslik əldə edib, yenidən keçmiş antidövlət fəaliyyətlərini qazanmasınlar. Eyni zamanda də elə edilməlidir ki, bu fəaliyyətə qurban olan, onların əməllərindən zərərçəkənlərin də haqqı bərpa olunsun. Ona görə də hazırda söyləmək çətindir ki, tutalım, hansı QHT rəhbərlərinin fəaliyyətini ifşa adı ilə onlar, öz şəxsi qisasçılıq hisləri ilə davranıblar, yaxud da dövlətə öz fəaliyyətlərini süni şəkildə göstərmək istəyiblər".

**Zahid Oruc bildirib ki, bir günahsız şəxsin düşmən obrazının yaradılması ilə cəmiyyətin və dövlətin elitasını inandırmaqla, bunun paralelində başqa işlər görülüb:** "Haradasa qızıl külçələr qazanılıb, sahibkarları tələlərə salıblar. Bunun nəticəsində hazırda gördüyümüz villalar peyda olub. Ancaq bu, məsələnin görünən hissəsidir. Dövlətin masası üzərindən yatırılan informasiyalar isə daha böyükdür. Hesab edirəm ki, bu strukturu yaradanlar ilk növbədə dövlət başçısından cəzanı aldıqdan sonra digərlərinin hüquqlarının qorunması istiqamətində addımlar atılacaqdır. Eyni zamanda həmin bu kəşfiyyatın məlumatları hesabına həbsdə olan hər hansı bir media işçisi, QHT nümayəndəsinin də işlərinin bir qisminin yenidən etibarlılıq dərəcəsini yoxlamaq lazımdır. Lakin burada elə hamını qurbanlıq elan etmək olmaz. Onların bir strukturun əli ilə həbs olunduğunu, sanki ölkəni bir nazirlik idarə edirmiş kimi mənzərəsini də ortaya çıxarmaq çox yanlış olar. Təbii ki, ölkədə təhlükəsizlik həyatı, hərbi sferada Silahlı Qüvvələr vasitəsilə, dövlətin daxilində müvafiq orqanların strateji layihələri Xüsusi Dövlət Mühafizə Xidməti vasitəsilə təmin olunur. Eyni zamanda kəşfiyyat və əks-kəşfiyyat işinə Milli Təhlükəsizlik Nazirliyi baxır. Bunlar isə çox mümkündür ki, "beşinci kolon"un içərisinə elə öz adamlarını salıblar ki, onun timsalında guya kimlərisə cəzalandırıblar. Ancaq digər tərəfdən, dinləmək, dövləti daxildən almaq, sahibkarların üzərinə yürüşlər kimi addımlar atıblar".

**REAL hərəkatının icra katibi Natiq Cəfərli dedi ki, Azərbaycanda son dövrlər QHT-lərə sanki düşmən kimi baxılıb:** "Nəticədə isə bu təşkilatlar sıradan çıxarılıb. Əlbəttə ki, bu, tamamilə səhv bir yanaşma idi. Jurnalistikanın özü belə Azərbaycanda basqı altında olub. Halbuki Azərbaycan jurnalistləri bu gün baş verən hadisələr barəsində, məmurların özbaşınalıqları haqqında yüzlərlə məqalələr yazırdılar. Ancaq ölkə hakimiyyəti, hüquq-mühafizə orqanları bunlara heç bir reaksiya vermirdilər. Əksinə, yazanları təqib edirdilər. İndi isə artıq məlum olur ki, dövlətin çox vacib qurumlarında, nazirliklərində böyük qanunsuzluqlara, haqsızlıqlara yol verilib. Ancaq görünən bir məqam budur ki, hökumət öz siyasətində hələ köklü dəyişiklik etmək fikrində deyil. Azad fikir hələ də təzyiq altındadır. Böyük əksəriyyət Azərbaycanda təkamül yolu ilə inkişafın tərəfdarıdır. Ancaq təkamül də azad rəqabətdən doğur. Bu baxımdan, ilk olaraq yuxarıda qeyd etdiyim məsələlər həll olunmalıdır".

❑ Əli RAİS

# "Arif Yunus dindarları təhqir etməyib və etməz"

## Tale Bağırzadə: "O, sadəcə olaraq, öz fikrini bəyan edib"

**Ötən il avqustun 5-dən həbsdə olan tarixçi alim, hüquq müdafiəçisi Arif Yunus noyabrın 12-də səhhətindəki problemlərə görə Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə azadlığa buraxılıb.**

Lakin Arif Yunus azadlığa çıxar-çıxmaz qalmaqalla üzləşib. Belə ki, onun azadlığa çıxdıqdan sonra jurnalistlərin suallarını cavablandırarkən, dindarlarla bağlı verdiyi cavab ictimaiyyətdə birmənalı qarşılanmayıb. Jurnalistin "MTN-də sizə işgəncə verilibmi" sualına, Arif Yunus belə cavab verib: "Bilirsinizmi MTN kimin üçün nisbətən asandır? Dindarlar üçün. Onlar hesab edirlər ki, burada çəkdikləri əzab Allah yolundadır. Axı mən onlar kimi deyiləm... Xüsusən də nəzərə almaq lazımdır ki, mən aliməm, həmişə nəsə yazmalıyam. Yazmayanda mənim üçün çətin olur".



Arif Yunus



Tale Bağırzadə

İctimaiyyətdə bəzi şəxslər onun bu cavabını dindarlara qarşı təhqir kimi qiymətləndiriblər. Hesab edirlər ki, Arif Yunus bu fikri ilə dindarları cahil hesab edib. Bu isə onların təhqir olunması deməkdir.

Arif Yunusun fikirində dindarlara qarşı təhqir varmı?

**Məsələ ilə bağlı musavat.com-a danışan "Müsəlman Birliyi" Hərəkatının sədri, Hacı Tale Bağırzadə danışıb:** "Öncəliklə qeyd edim ki, Arif Yunusun həbsdən azad olunması həqiqətən bizi çox sevindirdi. Ümid edirik ki, yaxın günlərdə Leyla Yunus da həbsdən azad ediləcək. Arif Yunusun sözügedən fikrinə gəlincə isə onu deyim ki, türmə həyatı yaşamayan insanlar bunu başqa cür başa düşürlər. Ancaq həqiqət budur ki, çöldə ateist olan insan içəridə ateist kimi qala bilmir. Gərək Allaha inansın, mənəvi hüzur olsun ki, orada qala bilsin. Mənəvi hüzur olmadan adam orada qala bilməz. Dəli olar. Arif Yunusun çıxışında isə heç bir dinə və dindarlara qarşı təhqir yoxdur. O, sadəcə olaraq, öz fikrini bəyan edib. Ola bilər ki, həmin ifadə kiməsə nə isə anlaşılmaz gəlib. Ancaq onu deyim ki, Arif Yunus heç zaman dindarları təhqir etməyib, etməz də. Bir daha qeyd edirəm ki, biz onun həbsdən azad olunmasına sevinirik".

❑ Əli RAİS

**Prezident İlham Əliyev “Vətəndaşların müraciətləri haqqında” 2015-ci il 30 sentyabr tarixli qanunun tətbiqi barədə fərman imzalayıb.**

# Prezident vətəndaşların müraciətlərinin araşdırılmasına dair mühüm fərman imzaladı

## Dövlət və bələdiyyə orqanları, təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər müraciətlərə ən geci 15 gün müddətində baxmalıdır



APA-nın məlumatına görə, Nazirlər Kabinetinə 3 ay müddətində qanunların və Prezidentin aktlarının “Vətəndaşların müraciətləri haqqında” qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini, həmin qanunun pozulmasına görə məsuliyyət müəyyən edən qanun layihəsini, dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydasını, habelə dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi qaydasını hazırlamaq və prezidentə təqdim etmək tapşırılıb.

Nazirlər Kabineti həmçinin həmin ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin siyahısını, habelə telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması qaydasını prezidentlə razılaşdırmaqla təsdiq etməlidir.

Qeyd edək ki, qanuna əsasən siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərə, habelə normativ hüquqi aktlar və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslərə və fərdi sahibkarlara müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydası bu qanunla tənzimlənir. Vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılmalıdır.

Yazılı müraciətdə müraciətə baxan subyektin adı və ya onun vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi (vəzifəli şəxsin elektron ünvanına göndərilən müraciətlər istisna olmaqla), müraciət edən fiziki şəxsin adı, atasının adı, soyadı və ünvanı (yaxud işlədiyi yer), hüquqi şəxsin adı və hüquqi ünvanı və müraciət nümayəndə vasitəsilə təqdim edildikdə, nümayəndənin adı, soyadı, atasının adı və ünvanı göstərilir. Müraciət hüquqi şəxslərin firma rekvizitləri olan blankda göndərildiyi, yaxud fiziki şəxsin əlaqə məlumatlarından ən azı birinin göstərildiyi hallar istisna olmaqla, bu tələblərə cavab vermədikdə anonim sayılır. Anonim müraciətlər müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilmir və onlara baxılmır. Elektron müraciət həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir və ya onun rəsmi internet saytına daxil edilir. Bu qanunun tələblərinə uyğun olaraq verilən müraciəti qəbul etməkdən imtina qadağandır. Elektron müraciətlərə müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən müraciət edənin göstərdiyi elektron ünvan vasitəsilə elektron qaydada və ya müraciət edənin xahişi ilə poçt ünvanı vasitəsilə yazılı cavab verilməklə baxılır. Vətəndaşın müraciətində göstərilən məsələlər “Dövlət sirri haqqında” Qanuna uyğun olaraq dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə müraciətin bu səbəbdən mahiyyəti üzrə cavablandırılmasının mümkünsüzlüyü barədə müraciət edənə məlumat verilir.

Vətəndaşların müraciətlərini aidiyyəti üzrə baxılmaq üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən subyektə göndərmək qadağandır. Müraciət bu qanunda qoyulan tələblərə cavab vermədikdə, müraciətdə göstərilən məsələ ilə əlaqədar məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda, vətəndaşın təkrar müraciətlərinə bir il ərzində 3 dəfə mahiyyəti üzrə əsaslandırılmış cavab verildikdə və təkrar müraciətdə məsələnin həlli üçün yeni məlumatlar olmadıqda, müraciətin aidiyyəti üzrə göndərilməsi mümkün olmadıqda və ya müraciətdə olan məlumatlar onun həlli və ya aidiyyəti üzrə göndərilməsi üçün kifayət etmədikdə baxılmamış saxlanılır.

Dövlət orqanlarında korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə, bu maddənin xüsusiyyətləri nəzərə alınmaqla, bu qanuna müvafiq olaraq baxılır. Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciət daxil olduqda dövlət orqanının rəhbəri müraciət üzrə xidməti araşdırma təyin edir. Xidməti araşdırmanı müvafiq dövlət orqanında daxili nəzarət xidməti aparır. Xidməti araşdırma 20 iş günü müddətində başa çatdırılmalı və nəticəsi barədə məlumat dövlət orqanının rəhbərinə təqdim olunmalıdır. Əlavə materialların və məlumatların əldə edilməsi tələb olunduqda dövlət orqanı rəhbərinin bu müddəti 10 iş günü uzatmaq hüququ var. Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətlərinə daxil olduğu gündən etibarən ən geci 15 iş günü ərzində baxılır. Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda, müraciətin daxil olduğu andan 24 saat keçənədək baxılmalıdır. Müraciətə baxan subyektlər vətəndaşların qəbul edilməsini vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ayda bir dəfədən az olmamaqla təmin etməlidirlər.

# “Falçılığın ləğvi qərarla həll olunmur”



Mübariz Qurbanlı

**Mübariz Qurbanlı:** “Biz deyirik ki, falçılıq, cadugərlik əməlləri dələduzluq müddəasından çıxarılıb ayrı bir maddə kimi həm Cinayət Məcəlləsinə, həm də İnzibatı Xətalar Məcəlləsinə daxil edilsin”

**“Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən falçılığın ləğv olunmasını nəzərdə tutan qərar layihəsi hazırlanmayıb, belə bir söhbət yoxdur. Falçılığın ləğv olunması qərarla həll olunmur”.**

Bunu "Trend"ə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı falçılığın qadağan olunması ilə bağlı yeni qərar layihəsinin hazırlanması barədə yayılan məlumatlara aydınlıq gətirərkən deyib.

Komitə sədrinin sözlərinə görə, falçılıq, yalançı ekstrasenslik, cadugərlik və digər əməllər Cinayət Məcəlləsində dələduzluqla bağlı müddəada öz əksini tapıb.

M.Qurbanlı bildirib ki, komitə yalnız falçılıq, yalançı ekstrasenslik, cadugərlik əməllərinin Cinayət Məcəlləsinin dələduzluq müddəasından çıxarılıb buraya ayrıca bir maddə kimi daxil edilməsi təşəbbüsünü qaldırır: “Bununla bağlı qərar layihəsi yoxdur. Biz sadəcə deyirik ki, falçılıq, yalançı ekstrasenslik, cadugərlik əməlləri dələduzluq müddəasından çıxarılıb ayrı bir maddə kimi həm Cinayət Məcəlləsinə, həm də İnzibatı Xətalar Məcəlləsinə daxil edilsin. Biz təşəbbüs irəli sürmüşük ki, maarifləndirmə aparaq, hüquqi baxımdan da onu dələduzluq müddəasından ayırıb konkretləşdirək. Biz bu təklifi vermişik. Ola bilər ki, Milli Məclisdə bu təklifə deputatlar, hüquqşünaslar baxsınlar. Bu, qanunvericilik qaydasında Milli Məclisdə də hazırlana bilər. Biz də qanunvericilik təşəbbüsü ilə hökumətə belə bir ideya verə bilərik”.



# Azərbaycanın xarici borcunun miqdarı açıqlandı

**Maliyyə Nazirliyi Azərbaycanın xarici borcu haqqında məlumat yayıb. Virtualaz.org nazirliyə istinadən xəbər verir ki, 1 oktyabr tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 6,730.9 milyon ABŞ dolları (7,054.0 milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 12.4 faiz təşkil edib. Borc statistikasına hökumətin birbaşa öhdəlikləri və dövlət zəmanətilə cəlb edilmiş kreditlər üzrə şərti öhdəliklər daxil edilib. Borc vəsaitlərinin 8.0%-i 10 ilə qədər, 58.6%-i 10 ildən 20 ilə qədər, 33.4%-i isə 20 ildən artıq olan müddətə cəlb olunub.**

01 oktyabr 2015-ci il tarixi vəziyyətinə xarici borc üzrə alınan kreditlərin valyuta tərkibi aşağıdakı kimi olub: XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) - 9.4 faiz, valyutalar üzrə isə ABŞ dolları ilə - 66.0 faiz, avro - 20.3 faiz, yapon yeni - 2.6 faiz, İslam dinarı - 0.6 faiz, BƏƏ dirhəmi - 0.5 faiz, Səudiyyə rialı - 0.4 faiz, Küveyt dinarı - 0.2 faiz.

Əsasən Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və digər beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş vəsaitlər iqtisadi islahatlar proqramlarının dəstəklənməsi, infrastrukturun bərpası və yenidən qurulması, habelə yol tikintisi, regionların su təchizatının yaxşılaşdırılması, dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, sənaye və s. sahələrə istifadə edilib.



# Rəsulzadə Urmiya-Gəncə paralelində

Zamin HACI
zaminhaci@gmail.com

**İranda türklərə qarşı təhqirlər, etiraz aksiyaları xəbərlərindən sonra indi də etirazçıların sıxışdırılmasını, repressiyaya uğramasını eşidirik. Məqsədim bu haqda yazmaq deyil. Sadəcə, dünən molla rejiminin Urmiyadakı qardaşlarımıza qarşı silahlı dəstələr göndərməsi xəbərini oxuyanda bir kiçik tarixi hadisəni xatırladım. Bunu Məhəmməd Əmin Rəsulzadənin əsərləri toplusundan oxumuşam, istədim sizinlə də bölüşüm. Rəsulzadənin necə böyük şəxsiyyət olması belə xırda detallardan da aydın görünür.**

1908-ci ildə Rəsulzadə İrana gedib, orda Bakıda çıxan "Tərəqqi" qəzetinin, başqa media orqanlarının müxbiri kimi fəaliyyət göstərib. Yeri gəlmişkən, Rəsulzadə İran tarixində də ilk Avropa stilində qəzetin və siyasi partiyanın yaradıcısı sayılır. Sözüm bunda deyil. Həmin 1908-1909-cu illərdə o, İranı, Güney Azərbaycanı qarış-qarış gəzir, bu ərazilərdən jurnalistika, tarix baxımından mükəmməl etnoqrafik, reportaj və məlumat xarakterli yol qeydləri yazır. Örnək üçün, Rəsulzadə orda bir kəndlinin evində qonaq qalmasını elə bədii təsvir edib ki, indinin özündə bizim belə təsvirlər yazmaq qabiliyyəti olan jurnalist və yazıçılarımız çox azdır.

Ancaq çatdırmaq istədiyim fakt Urmiyada baş verir. Rəsulzadə şəhərə gələndə görür ki, nəsə bir çox insanlar narahatdır. Səbəbini öyrənir. O vaxt Urmiya Osmanlı imperiyasının, İranın və Rusiyanın təsiri altında imiş. *(Bunu izah eləsəm uzun alınar)*. Şəhərdə bu 3 dövlətin nümayəndəlikləri, müəyyən sayda qoşun hissələri varmış. Sən demə, iranlılar Osmanlıya işləyən hansısa "agenti" tutub zindana salıblar. İndi Osmanlının şəhərdəki nümayəndəsi, adı şübhəli şəkildə namərd qonşularımızı xatırladan "Petros əfəndi" (Rəsulzadə onu yazısında belə təqdim edir və Osmanlının belə məsuliyyətsiz kadrlarla işləməkdə suçlayır) silahlı dəstə götürüb İran fədailərinin qərargahına basqın eləmək, həmin adamı azad etmək fikrindəymiş. Rus konsulluğu da hansısa şəkildə bu hadisə ilə əlaqəli olur, ruslar da istəyir türklər və farslar bir-birini qırsın.

Uzun sözün qısası, Rəsulzadə şəhərdəki bu təhlükəli durumu görüb çox narahat olur, bu toqquşmalar olsa ilk növbədə Urmiyanın əsas sakinləri olan türklərin *(azərbaycanlıların)* zərər çəkəcəyini düşünür və dərhal fəaliyyətə keçir. Osmanlının qərargahından fədailərin yanına gedir. Sonra rus konsulluğuna baş çəkir. Hər 3 yerdə barışığa, problemi dinc yolla həll etməyə çağırır və maraqlıdır ki, buna nail olur!

İndi özünüz təsəvvür edin: bu cür sülhpərvər, indiki dillə desək, ateşkəs missiyası ilə məşğul olan Rəsulzadənin o vaxt cəmi 24 yaşı vardı! Urmiyaya ilk dəfə gəlirdi. Ümumiyyətlə, başqa dövlətin vətəndaşı idi. Heç kimdən sülhyaratma mandatı almamışdı. Ancaq onu eşidirdilər! Qarşılarında savadlı, mədəni, gerçək bir ziyalı insanın durduğunu görən tərəflər onun dediklərinə əməl etməyi özlərinə borc bilirdilər.

Bax, yapist rejimin Rəsulzadəyə qarşı qısqanclığı belə-belə saysız səbəblər, hadisələr üzündəndir. Axı özləri, öz qabaqda gedənləri heç vaxt belə etməzdi! Əksinə, münaqişəni daha da alovlandırmağa, günahsız insanların qanı ilə bulanan suda özləri üçün balıq tutmağa çalışardılar. Başqa miqyasda, başqa illərdə bunu Gəncədə görmüşük. O Urmiya, bu Gəncə - müqayisə edin.

Ona görə Rəsulzadənin adını hər yerdən silmək kimi gülünc cəhdlər edirlər. (Elə bil gözləri önündə tarix yoxdur). Ona görə böyük öndərimizin Gəncədəki büstünə çuval keçiriblər. Guya yarasa qanadları ilə Günəşin qabağını ala bilərlər.

## İki sabiq nazirin rabitə sistemini ələ keçirməsinə dair şok detallar




# Məzahir Pənahov rabitə naziri ola bilər - iddia

### Eldar Mahmudovun Rabitə Nazirliyini "əsarət"ində saxlamasının detalları; hazırda Sabunçu Telefon Qovşağının rəhbəri olan Nəriman Salmanovu Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəhbəri vəzifəsindən işgəncə ilə uzaqlaşdırıblarmış...

**Milli Təhlükəsizlik Nazirliyində başlayan, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində davam etdirilən proseslər heç şübhəsiz ki, qısa müddətdə sәngiməyəcək, ortaya daha ciddi faktlar çıxmaqda davam edəcək. Çünki burada söhbət dövlətə olan təhdiddən, bəzi iddialara görə, dövlətə xəyanətdən, eyni zamanda milli təhlükəsizlik nazirinin uzun illər ərzində digər bir nazirliyi öz nəzarəti, təhdidi altında saxlaması kimi ağlasığmaz iddialardan gedir.**

Redaksiyamıza sabiq nazir Eldar Mahmudovun rabitə sistemini necə təhdid etməsi, Əli Abbasovun hansı metodlarla "verbovka" etməsi, Bakı Telefon Rabitəsi İstehsalat Birliyini necə nəzarətinə keçirməsi, ora yaxın qohumu Beytulla Hüseynovu hansı metodla rəhbər gətirməsi, əvvəlki rəis Nəriman Salmanovu girov götürməsi, onu istefaya məcbur etməsi haqda maraqlı məlumatlar daxil olub.

**Xəbəri verən mənbə bildirib ki, 2005-ci ilədək Gəncə Telekommunikasiya İdarəsinə rəhbərlik edən Nəriman Salmanov Əli Abbasov rabitə naziri təyin olunandan sonra Bakıya gəlib. Nazir onu Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəisi vəzifəsinə irəli çəkib. Lakin bundan qısa müddət sonra onun, necə deyərlər, başına müsibətlər gətirilib. Mənbənin dediklərindən:** "Nəriman Salmanov BTRİB-ə rəis gətiriləndən bir neçə ay sonra onu MTN-ə çağırıblar. Orada ona nazir E. Mahmudovun adından deyilib ki, bütün fəaliyyətini MTN-dəki bir qrupla razılaşdırmalıdır, onların dedikləri bütün qanunsuz işləri həyata keçirməlidir. Həmin vaxt ona deyilib ki, Eldar Mahmudov üçün maraqlı olan adamların telefonları nəzarətə götürülməli və daim dinlənməli, nəticə haqda da nazirin özünə sistematik olaraq məruzə edilməlidir. Nəriman Salmanov peşəkar rabitəçidir, qanundan qorxan adamdır, birmənalı şəkildə bundan imtina edib. Deyib ki, əgər bunlar dövlətə lazımdırsa, məhkəmə qərarı çıxarılsın, bundan sonra dinləmələri həyata keçirməyə qanun imkan verir. Bu zaman onu orada döyüblər, təxminən 1 aya yaxın kənar bir yerdə, iddiaya görə, general Akif Çovdarovun gizli həbsxanasında saxlayıblar. Bu müddət ərzində ailəsi belə onun harada olmasından xəbər tuta bilməyib. Nəriman Salmanov, nəhayət, həmin vəzifədən istefa verəcəyini bildirib, bundan sonra onu azad ediblər. O, dediyinə əməl edərək istefa ərizəsi yazıb. Bütün bu proseslərdən Əli Abbasov məlumatlı olub. Amma həmin vaxt Eldar Mahmudov Əli Abbasova deyib ki, bütün bunlar ölkə rəhbərliyi ilə razılaşdırılıb, faktiki olaraq onu aldadaraq öz istəyinə nail olub. Nəriman Salmanov Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəhbəri vəzifəsindən azad edildikdən dərhal sonra Eldar Mahmudov Əli Abbasovdan o posta qohumu Beytulla Hüseynovu təyin etməyi tələb edib və tələb icra olunub. Faktiki olaraq bu olaydan sonra Əli Abbasov da Eldar Mahmudovun icra komandasına daxil olub".

**Qaynaq deyir ki, Nəriman Salmanov BTRİB-dən gedəndən sonra Əli Abbasov onu Yasamal Telefon Qovşağının rəisi vəzifəsinin icraçısı təyin edib. Lakin Eldar Mahmudov buna da mane olub:** "Deyib ki, Yasamal strateji ərazidir, Nəriman orada da bizə mane olacaq, onu başqa yerə göndər. Bundan sonra onu ucqara, Sabunçu Telefon Qovşağının rəisi vəzifəsinə təyin ediblər. O, burada da daim təhdid altında olub. Bunlara görə o, kabinetinin içərisini də kameralatmışdı ki, otağa gələn hər kəsin davranışları da qeydə alınsın. Bundan başqa, vaxtaşırı Sabunçu ATS-in əməkdaşlarının rəisə qarşı "zəhmətkeş" məktubları peyda olurdu".

Nəriman Salmanov özü bir neçə ay öncə mətbuata verdiyi açıqlamada da qeyd edib ki, ona qarşı qərəzli kampaniya aparılır. Sitat: "KİV-lərə mənimlə bağlı anonim iddialar göndərirlər. Bu iddiaları yazanlar, yalan deyənlər öz adlarını, imzaları gizlədirlər"...

***

Bu arada məlum olub ki, Rabitə Nazirliyində çox ciddi struktur və kadr dəyişiklikləri həyata keçiriləcək. Artıq məlumat da açıqlanıb ki, təhlükəsizlik və rabitə sistemləri ilə bağlı qanunvericilik bazası yenilənəcək.

**Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Siyavuş Novruzov APA-ya bildirib ki, təhlükəsizlik, dövlət sirrinin qorunması və bundan irəli gələn məsələlər, eləcə də bu mövzuların mətbuatda işıqlandırılması forması ilə bağlı dövlət başçısının müvafiq sərəncamı var və bundan irəli gələrək qanunvericiliyə əlavə və dəyişikliklər hazırlanıb. Milli Məclisdə bu məsələnin müzakirəyə çıxarılacağını söyləyən S. Novruzov qeyd edib ki, nəzərdə tutulan dəyişikliklər dövlət sirrinin və hərbi sirlərin qorunması, təhlükəsizlik sisteminin və bunlarla əlaqədar olaraq rabitə sisteminin möhkəmləndirilməsinə dair əlavə və dəyişikliklərdir:** "Yeni parlamentdə bu məsələlərin müzakirəyə çıxarılması planlaşdırılıb. Məqsəd qeyd olunan sahələrin gücləndirilməsidir. Bu sahədə qanunazidd əməllərə qarşı Cinayət Məcəlləsindəki müvafiq maddələrin sərtləşdirilməsi də nəzərdə tutulub".

**S.Novruzov qanunvericiliyə ediləcək əlavə və dəyişikliklərdə rabitə sisteminin diqqət mərkəzində olacağını deyib:** "Çünki təhlükəsizliyin əsas istiqamətlərindən biri elə rabitə sistemidir"...

**Bizim qaynağımız isə çox ciddi bir informasiya da açıqlayıb. Mənbə iddia edir ki, yeni rabitə naziri MSK sədri Məzahir Pənahov olacaq:** "Hələ seçkilərdən əvvəl onun nazirliklərdən birinə rəhbər gətiriləcəyi, bu illər ərzində hakimiyyətə göstərdiyi xidmətlərə görə mükafatlandırılacağı deyilirdi. Məzahir Pənahov əslində ixtisasca fizikdir, rabitə sahəsini bilən adamdır. O, hazırda BDU-nun ümumi fizika kafedrasının müdiridir, Fizika-riyaziyyat elmləri doktoru, professordur. İndiyədək heç bir siyasi səhvə yol verməyib, qruplaşma oyunlarına qatılmadığı üçün onun rabitə naziri postuna gətiriləcəyi kifayət qədər inandırıcıdır. O özü də bu postu tutmağa iddialıdır".

**Yazıda adları hallanan şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

T.ƏHMƏDLİ

YENİ MÜSAVAT
N 253 (6281) 14 noyabr 2015




# Əli Abbasov rəhbərlik etdiyi qurumu MTN-in poliqonuna çeviribmiş

## Sabiq nazirin evlərində axtarış aparılması təsdiqlənir; onu 8 il azadlıqdan məhrum edə bilərlər

**Eldar Mahmudovun tutduğu postdan qəfil uzaqlaşdırılması, ardınca Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Monitorinq Mərkəzinin - telefonların dinlənilməsi idarəsi əməkdaşları Natəvan Məmmədova və general-mayor Teymur Quliyevin istintaqa cəlb olunması əslində istintaqın istiqamətlərindən birini ortaya qoymuşdu.**

Belə təxminlər vardı ki, qanunsuz dinləmələr ölkə rəhbərliyini də əhatə edib. Bu baxımdan Əli Abbasovun rabitə və yüksək texnologiyalar naziri (RYTN) postundan uzaqlaşdırılacağını proqnozlaşdırmaq elə də çətin deyildi. Prezident sərəncamı ilə Ə.Abbasovun tutduğu postdan qovulmasının ardından Prezident Administrasiyasına yaxın saytlardan birində eks-nazrin əleyhinə kəskin yazı dərc etməsi vəziyyətin son dərəcə ciddi olduğunu ortaya qoydu. Həmin yazılardan belə başa düşülür ki, Ə.Abbasov Eldar Mahmudovun təzyiqi qarşısında davam gətirməyib və RYTN-in MTN rəhbərliyinə daxil olan korrupsiyalaşmış vəzifə daşıyıcılarının poliqonuna çevrilməsinə şərait yaradıb.

**Mahmudovun çetesi bütünlüklə üzə çıxarılır**

Bunu RYTN-in birbaşa telefon əlaqəsinə cavabdeh olan yüksək rütbəli əməkdaşlarının az qala kütləvi şəkildə həbsi də dolayısı ilə təsdiqləyir. Nazirliyin indiyədək 10 məmuru həbs olunub. Hakim elitada kifayət qədər güclü dayaqlara malik olan Əli Abbasovun vəzifədən azad olunması istintaqa Eldar Mahmudovun bütün qanunsuzluqlarını araşdırmaq səlahiyyəti verildiyini də söyləməyə əsas verir. Görünür, həbslər hələ davam edəcək. Bundan başqa, istintaq orqanları MTN-lə RYTN arasında kommunikasiya sahəsindəki qarşılıqlı münasibətlərin hansı səviyyədə olmasını araşdırmağa başlayıblar. Digər tərəfdən, Müdafiə Nazirliyinin kommunikasiya sahəsindəki təhlükəsizliyin gücləndirildiyi müşahidə olunur. Belə görünür ki, informasiya təhlükəsizliyi sahəsində ciddi çatışmazlıq və nöqsanlar aşkarlanıb. İnformasiya təhlükəsizliyinin təmin olunmasında isə RYTN MTN-dən heç də az rol oynamır, bəlkə də hətta artıq rol oynayır.

**Nazirin evində axtarış aparıldığı təsdiqlənib**

Bu baxımdan Əli Abbasovun özünün Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin müstəntiqləri tərəfindən bir neçə gün ərzində dindirilməsi heç də təsadüfi deyil. Belə ki, MTN-in həbs edilən yüksək rütbəli əməkdaşlarının istintaqı da Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılır. Virtualaz.org yazır ki, Əli Abbasovun mənzilində axtarış aparılmasını hüquq-mühafizə orqanlarındakı mənbə də təsdiqləyib. DİN, Baş Prokurorluq, MTN və Vergilər Nazirliyinin əməkdaşlarından ibarət xüsusi istintaq qrupu Rabitə Nazirliyində hərtərəfli yoxlamalara başlayacaq. Nazirliyin maliyyə-təsərrüfat kompleksi, habelə informasiya təhlükəsizliyi və telefon kommunikasiyası sferasındakı vəziyyət yoxlanacaq.

**Əli Abbasova şok ittiham - bağışlanmaz səhvə yol veriblər!**

Sabiq rabitə naziri Nadir Əhmədov Əli Abbasovun rabitə və yüksək texnologiyalar naziri vəzifəsindən azad edilməsinə münasibət bildirib. Eks-nazir azvision.az-a açıqlamasında bildirib ki, Əli Abbasovun işdən çıxarılması səbəbsiz deyil, o, yol verdiyi hansısa ciddi nöqsana görə vəzifəsini itirib. N.Əhmədov MTN olayı ilə bağlı yayılan iddialara münasibət bildirərək qeyd edib ki, nazirliyin bu məsələdə rolu varsa, o zaman bağışlanmaz səhvə yol veriblər. Qeyd edək ki, Nadir Əhmədov 1985-ci ildən 1997-ci ilədək (12 il) rabitə nazirinin müavini və 1997-ci ildən 2004-cü ilədək (7 il) rabitə naziri vəzifəsində işləyib.

**MTN-in keçmiş əməkdaşı İlham İsmayıl Əli Abbasovun tutduğu postdan uzaqlaşdırılmasında qanunsuz dinləmələrin yer aldığını istisna etmir:** ""Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun əsasında MTN telefon dinləmələrini həyata keçirir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi dövlət və özəl qurumların dinlənilməsi üçün şərait yaratmağa borcludur. Belə çıxır, dinləmə məsələsi elə bir həddə çatıb və elə yüksək səviyyəli şəxslər dinlənib ki, Rabitə və Texnologiya Nazirliyi bu barədə dövlət rəhbərliyinə informasiya verməyib. Bu məsələni ancaq belə qiymətləndirmək olar ki, Əli Abbasov yüksək instansiyaların dinlənildiyini bilib, ancaq hökumət rəhbərliyini bundan xəbərdar etməyib».

**Əli Abbasovu 8 il müddətinə azadlıqdan məhrum edə bilərlər**

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış deyir ki, əgər Əli Abbasovun qanunsuz dinləmələrə aidiyyəti olduğu müəyyən edilsə, onu 8 il müddətinə azadlıqdan məhrum edə bilərlər:** "Əgər müəyyən olunsa ki, qanunsuz dinləmələrə Əli Abbasov rəhbərlik edib, onun qanunsuz göstərişi ilə belə dinləmələr həyata keçirilib, belə bir halda ona Cinayət Məcəlləsinin 308.2-ci - vəzifədən sui-istifadə etmə, vətəndaşların hüquq və azadlıqlarının pozulması, ağır nəticələrə səbəb olduqda və 302-ci - əməliyyat axtarış fəaliyyəti haqda qanunun tələblərini pozma maddəsi ilə ittiham elan oluna bilər. Düşünürəm ki, Əli Abbasova ittiham elan etmək istəsələr, bu maddələrdən savayı digər maddələrlə də ittiham irəli sürə bilərlər. Onun fəaliyyətini yoxlayıb Cinayət Məcəlləsinin bir sıra maddələri - məsələn, nazir kimi vəzifə saxtakarlığı, külli miqdarda dövlət əmlakını mənimsəmə, külli miqdarda rüşvət alma ittihamları verilə bilər. Ümumiyyətlə, Azərbaycanda vəziyyət belədir ki, hansı vəzifədə çalışmasından asılı olmayaraq vəzifəli şəxslər Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Məsələnin başqa tərəfi də budur ki, ittiham etməkdən əlavə həmin əməlləri törətdiklərini onlara sübut etmək də lazımdır. Azərbaycanda belə bir ənənə var ki, məsələ siyasidirsə, sübut toplamadan da bu şəxslərə ittiham verə bilirlər. Müstəqil məhkəmə olmadığına görə belə ittihamlar çox asan şəkildə hökmə çevrilə bilir".

**M.Baxış deyir ki, Əli Abbasova gəldikdə isə ona ittiham verilib-verilməyəcəyi siyasi hakimiyyətin ona münasibətindən asılıdır:** "Əli Abbasova CM-in 308.2 və 302.2 maddəsi ilə ittiham olunacağı halda ona ümumilikdə 8 il azadlıqdan məhrum etmə cəzası təyin oluna bilər".

❑ **E.MƏMMƏDƏLİYEV**



# Növbədə Fazil Məmmədovdur?

## İki nazirlikdə aparılan "əməliyyatlar"ın vergi sisteminə də şamil ediləcəyi iddia olunur; **Natiq Miri:** "Proseslər cəmiyyət və dövlətə xeyirlidir"

**Noyabrın 12-də prezidentin sərəncamı ilə rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov vəzifəsindən azad edildi. Ötən ayın 17-də milli təhlükəsizlik naziri Eldar Mahmudov, indi də Ə.Abbasov sabiq nazir statusu qazandılar....**

Hazırda Rabitə və Texnologiyalar Nazirliyi də MTN-in taleyini yaşamaqdadır. Təhlükəsizlik orqanında oktyabrın 17-dən başlayan "inqilab", artıq bu nazirliyin üzərinə gətirilir. Təsadüfi deyil ki, indiyə qədər bu qurumun 10-dan çox yüksək rütbəli məmuru həbs edilib. Bu hələ üzdə olan faktlardır, gizlində olanlar yəqin ki olmamış deyil, qarşıdakı günlərdə bunlar da üzə çıxacaq...

Ekspertlər hesab edirlər ki, nazirlərin "yarpaq tökümü" davam edəcək. Artıq hədəfdə olan növbəti nazirin kimliyi barədə ilkin versiyalar ictimaiyyət arasında səsləndirilməkdədir. Bu, vergilər naziri Fazil Məmmədovdur. Yayılan xəbərlərdə iddia olunur ki, qarşıdakı günlərdə vergilər sahəsində yoxlamalara start veriləcək. Vergilər nazirinin də taleyinin əvvəlki iki qurumun rəhbərinin taleyini yaşayacağı iddia olunur.

Ə.Abbasovun vəzifəsindən uzaqlaşdırılacağı barədə ilk xəbəri günlər öncədən xəbər verən istiqlal.az saytının rəhbəri, **iqtisadçı ekspert Qadir İbrahimli** bildirdi ki, hazırda nazirlərlə bağlı proses sahibkarlığa qənim kəsilən sahələri əhatə edir: "Təxminən 10 gün qabaq Əli Abbasov öz aparatı ilə vidalaşmışdı. Sadəcə olaraq, onunla bağlı sərəncam bir qədər gecikdi. Buna səbəb də ətrafında əməliyyatların aparılması ilə bağlı idi. Ölkənin gəlirləri getdikcə azalır. Hökumət iqtisadiyyatın liberallaşdırılması prosesini həyata keçirməlidir. Əvvəlki kimi hökumətin maliyyə resursları yoxdur. Yeganə çıxış yolu sahibkarlığın dəstəklənməsidir. Bu yolda yeganə maneə hakimiyyətdə sahibkarlığa qənim kəsilən bəzi strukturlardır. Hazırda işdən çıxarılma və həbs olunma halları daha çox sahibkarlığa qənim kəsilən sahələri əhatə edir. Bu sırada dayanan qurumlardan biri də Vergilər Nazirliyidir. Bu qurumla bağlı kifayət qədər məlumatlar var. Növbəti mərhələdə bu nazirliklə bağlı müəyyən addımların atılması real görünür. Vergilər sistemində düşünürəm ki, təmizləmə işinin aparılmasına ehtiyac var. Daşınmaz Əmlak üzrə Dövlət Komitəsini də bu təhlükə gözləyir. Çünki sahibkarlara bu qurum da ciddi problemlər yaradır. Onların əmlakının müsadirə edilməsi prosesində Vergilər Nazirliyi də aktiv görünür. Əgər hakimiyyət sahibkarlığa qənim kəsilən qurumların, şəxslərin qarşısını almasa, ölkəni iqtisadiyyat böhranından çıxarmaq mümkün olmayacaq. Hakimiyyətin son addımları bunun fərqində olmalarının göstəricisidir. Bu proseslər may-iyun aylarına qədər davam edəcək. Çünki sahibkarlığa təkcə Vergilər Nazirliyi və MTN problem yaratmır".

**Politoloq Natiq Miri baş verən proseslərin digər nazirlikləri də əhatə edəcəyini istisna etmir:** "Əli Abbasovun vəzifədən uzaqlaşdırılması MTN-də baş verən proseslərlə bağlıdır. Ümumi bir prosesin tərkib hissəsidir. Hesab edirəm ki, bu prosesi qapanmış hesab etmək olmaz. Prezident və hüquq-mühafizə orqanları tərəfindən müəyyən işlər aparılır. Kələfin ucu ola bilsin ki, Vergilər Nazirliyindən, yaxud ağla gəlməyən digər qurumlardan çıxsın. MTN dövlətin dayağı sayılır. Bu nazirliyin bütün dövlət qurumlarına təsir imkanları var. Bu baxımdan proseslər digər qurumlara dolayısı yolla təsir edir. Cəzalandırılmalar davam edəcək. Düşünürəm ki, proseslər cəmiyyət və dövlətə xeyirlidir. Amma bu prosesdə iştirak edən şəxsləri cəzalandırmaqla, idarəetmədə kökündən islahatlar aparılmadan müsbət keyfiyyətlər əldə etmək mümkün deyil. Mütləq mənada bu islahatlara ehtiyac var. Kadrların seçilməsində dəyərlər sistemi, layiqlilik prinsipi əsas götürülməlidir. Bu insanlara dövlət və ictimai nəzarət təmin olunmalıdır. Bu yolla qanunsuzluqların qarşısını almaq olar. Əks təqdirdə, bunlar lokal xarakter daşıyacaq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 253 (6281) 14 noyabr 2015



# Vasif Talıbov Bakıya, oğlu Ali Məclis sədrliyinə gətirilir?

## 30 yaşlı Seymur Talıbovun Naxçıvan MR Ali Məclisinin üzvü seçilməsi böyük planın tərkib hissəsi kimi görünür

**Naxçıvan Muxtar Respublikasının (MR) Ali Məhkəməsinin Rəyasət Heyəti noyabrın 1-də Ali Məclisə keçirilən seçkilərin nəticələrini təsdiqləyib. Beləliklə, Naxçıvan MR Ali Məclisinə deputat seçilən 45 nəfərin adı noyabrın 12-də bilinib. Muxtar respublikada keçirilən seçkiləri bu dəfə daha çox diqqət mərkəzinə gətirən səbəb isə Ali Məclisin sədri Vasif Talıbovun oğlu Seymur Talıbovun deputat seçilməsidir. Seymur Talıbov 25 saylı Naxçıvan şəhər seçki dairəsindən Ali Məclisə deputat seçilib. Vasif Talıbovun özü isə 7 saylı Aralıq seçki dairəsindən deputat seçilib. Onu da qeyd edək ki, Vasif Talıbov Azərbaycan Respublikası Milli Məclisinə də 1 noyabrda keçirilən seçkilərdə 1 saylı Şərur-Sədərək seçki dairəsindən yenidən deputat seçilib.**

Vasif Talıbov uzun illərdir Ermənistanın blokadasında qalan Naxçıvan Muxtar Respublikasına rəhbərlik edir. Bu il yanvarın 14-də 54 yaşını qeyd etmiş Talıbov 1960-cı ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Aşağı Aralıq kəndində anadan olub. V.Talıbov 1991-ci ilin sentyabrından 1994-cü ilin aprelinədək Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin baş köməkçisi, 1994-cü ilin aprelindən 1995-ci ilin dekabrınadək Naxçıvan Muxtar Respublikası baş nazirinin xarici-iqtisadi əlaqələr üzrə birinci müavini vəzifələrində çalışıb. 16 dekabr 1995-ci il tarixindən bu günədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışır.

Yeni Azərbaycan Partiyasının yaranmasında fəal iştirak etmiş Vasif Talıbov 1995-ci il aprelin 8-də keçirilən konfransında YAP Naxçıvan Muxtar Respublika təşkilatının sədri seçilib.

20 ildir Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən Vasif Talıbovun Naxçıvandan Bakıya daha yüksək vəzifəyə gətiriləcəyi haqda indiyə qədər bir neçə dəfə mediada xəbərlər yayılıb. Ötən həftə də bu tipli xəbərlərdən biri "Yeni Müsavat"a daxil olmuşdu. Xəbərdə Vasif Talıbovun milli təhlükəsizlik naziri vəzifəsinə gətirilmə ehtimalından söz açılırdı.

Xəbərdə bildirilirdi ki, MTN rəhbərliyi uğrunda hakimiyyətdəki Naxçıvan klanı hərəkətə keçib və artıq Vasif Talıbovun adı milli təhlükəsizlik naziri postuna əsas iddiaçı kimi hallanır.

Bu istiqamətdə "Yeni Müsavat"ı bilgiləndirən mənbələrin iddiasına görə, iqtidardakı Naxçıvan qrupunun xilas modeli kimi həmin qrup Vasif Talıbovun MTN-ə rəhbər təyinatında maraqlıdır. Çünki MTN nüfuzuna, təsir imkanlarına görə dövlətdə ən əsas qurumlardan biridir. V.Talıbov kimi güclü adamın bu posta gətirilməsini klan öz maraqları baxımından olduqca əlverişli sayır. Köhnə klanın bu istəyini ölkə rəhbərliyinə çatdırdığı da gələn xəbərlər sırasında sadalanırdı.

Mənbə onu da bildirmişdi ki, V.Talıbovun milli təhlükəsizlik naziri olmasını istəyənlər əsas kimi onun bütün məmurlarla, dövlət adamları ilə məsafəli münasibətini göstərir. V.Talıbovun nazir olmasını istəyənlər bu seçimin hakimiyyət daxilindəki qruplaşmalar arasında gərginliyi aradan qaldıracağına, ortamın yumşalacağına gətirib çıxaracağını deyirlər.

V.Talıbovun milli təhlükəsizlik naziri vəzifəsinə irəli çəkilməsində bacanağı, prezidentin şəxsi mühafizə xidmətinin rəisi, general-polkovnik Bəylər Əyyubovun da maraqlı olduğu deyilir. Bildirilir ki, Bəylər Əyyubovun marağında olan çox ciddi bir məsələni taleyin ümidinə buraxmadığı aydındır.

Oğlu Seymur Talıbovun Naxçıvan Ali Məclisinin deputatı seçilməsindən sonra V.Talıbovun Bakıya yüksək vəzifəyə gətiriləcəyi barədə xəbərlər daha inandırıcı sayıla bilər. Artıq Seymur Talıbovun atasının yerinə-Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsinə hazırlandığı xəbərləri dövriyyəyə buraxılmaqdadır. V.Talıbovun iki oğlu var və Seymur Talıbov ilk dəfədir deputat seçilib. V.Talıbov istəsəydi oğlanlarını indiyə qədər heç bir problemsiz, asanlıqla deputat seçdirərdi. Seçdirməməsi o deməkdir ki, ata Talıbov buna zərurət görməyib. Belə bir zərurətin məhz indi yaranması S.Talıbovun bəlkə də ən yaxın gələcəkdə atasının kreslosunda əyləşdiriləcəyini söyləmək üçün arqument sayıla bilər.

Seymur Talıbov Vasif Talıbovun kiçik oğludur. 30 yaşlı S.Talıbov elm sahəsində çalışır. Onun Naxçıvan şəhərindəki 12 saylı orta məktəbi bitirəndən sonra London Universitetində ali təhsil aldığı bildirilir. Məlumata görə, S.Talıbov hazırda Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin Beynəlxalq münasibətlər kafedrasında çalışır. O, həmçinin hakim Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının Şura üzvüdür.

S.Talıbov alimlik dərəcəsi almaq üçün bu il aprelində 1-də dissertasiya müdafiə edib. O, Ali Attestasiya Komissiyasına hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi təqdim etmişdi. S.Talıbovun müdafiə etdiyi elmi iş "Regional enerji təhlükəsizliyinin beynəlxalq hüquqi problemləri" adlanır. Dissertasiya işində Xəzər regionunda enerji təhlükəsizliyi məsələlərindən bəhs olunub.

❑ **Etibar SEYİDAĞA**

# "Əli Abbasov o zaman üçün ən uğurlu kadrlardan biri idi"

## Osman Gündüz: "BTRİB rəhbərinin imkanı var idi ki, nazirə də təzyiq göstərsin"

**Xəbər verdiyimiz kimi, noyabrın 12-də rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov vəzifəsindən azad edilib. İddialara görə, Əli Abbasov məhz "MTN işi" ilə bağlı yol verdiyi xətalar üzündən vəzifəsindən çıxarılıb. Hazırda bu məsələlərlə bağlı Baş Prokurorluq tərəfindən istintaq-təhqiqat işləri davam etdirilir. Aşkarlanmış korrupsiya faktları ilə bağlı Baş Prokurorluqda başlanmış cinayət işi üzrə nazirliyin 10-dan çox əməkdaşı barəsində həbs-qətimkan tədbiri seçilib. Uzun illər bu sektorda çalışan, RYTN-in həyata keçirdiyi bir çox layihələrin tərəfdaşı olan "Multimedia" Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz nazirlikdə baş verənlərlə bağlı "Yeni Müsavat"a açıqlama verib.**



O. Gündüz bildirib ki, ilk növbədə bu məsələ dövlət başçısının konstitusion səlahiyyətlərinə aid olan bir məsələdir: "Bu, prezidentin müstəsna səlahiyyətidir və ondan istifadə edərək bu kadr dəyişikliyini həyata keçirib. Mən hesab edirəm ki, İKT sektorunda kadr dəyişikliyi üçün prezident belə məqbul hesab edib. Düşünmürəm ki, prezidentin bu səlahiyyətini müzakirə etməyə ehtiyac var".

**Nazirliklə bağlı gedən araşdırmalara gəlincə, AİF prezidenti bildirib ki, bu haqda rəsmi açıqlama olmadığına görə, yalnız gümanlar var:** "Bu dəqiqə ehtiyac duyulan məsələ rəsmi informasiyadır ki, nazirlikdə nə baş verir. MTN-də və RYTN-də baş verənlərdən hansı korrupsiya ilə, hansı isə dinləmələrlə bağlıdır? Burada hansı qanunlar pozulub? Bununla bağlı rəsmi məlumatlar olmadığına görə ekspertlər də, ictimai qurumlar da konkret söz deməyə çətinlik çəkirlər. Hesab edirəm ki, aidiyyəti qurumlar rəsmi informasiya versələr yaxşı olar".

**Əli Abbasov haqqında fikirlərini bölüşən ekspert onu uğurlu kadr kimi qiymətləndirib:** "Mən düşünürəm ki, biz Əli Abbasovu bir ziyalı, alim və səmimi insan kimi tanımışıq. Yadınıza salın ki, Əli Abbasovdan öncəki nazirlə 2004-cü ildən öncə bizim 2 il sürən, "İnternetdə senzura" ilə bağlı məhkəmə çəkişməmiz var idi. Səbəb də o zamankı nazirin internetə senzura qoymaq istəyi idi. Əli Abbasov isə İlham Əliyevin o zaman üçün ən uğurlu kadrlarından biri idi. Əli Abbasov gələndən sonra senzuranı ləğv elədi, bu sektorda xeyli uğurlu addımlar atıldı. Bunu danmaq olmaz. Rabitə sektorunu hamı kabel sektoru kimi tanıyırdı. Məhz onun dövründə həyata keçirilən tədbirlər nəticəsində əhaliyə məlum oldu ki, bu sahə bir infomasiya cəmiyyətidir, İKT sektorudur. Bu sahədə dinamika təmin olundu.

Ancaq əlbəttə, problemlər, nöqsanlar vardı. İnternetlə bağlı, bu sahədəki inhisarçılıqla bağlı problemlər də var. Nazirliyin son iclaslarında da qeyd olunmuşdu ki, bəzi operatorlarda korrupsiya faktları, qərarların icra olunmaması və sair problemlər də var. Biz də bunları dəfələrlə yazmışdıq".

**Osman Gündüz BTRİB- lə bağlı ciddi problemlərin elə əvvəldən də olduğunu bildirib:** "Biz də dəfələrlə çıxış etmişdik ki, bu qurumda problem var, inhisarçılıq var. Hətta dəqiq rəqəmlərlə biz bu qurumun bir ayda əldə etdiyi gəlirlər haqqında geniş bir açıqlama vermişdik. Ancaq təəssüf ki, o zaman BTRİB rəhbərinin söykənəcəyi yer var idi və bu sektorda heç kimi saymırdı. Bəlkə də problemlərin çoxu bu səbəbdən yaşanırdı. BTRİB rəhbərinin əlində imkan var idi ki, nazirə də təzyiq göstərsin. Yeni söykənəcək yeri var idi . Amma əlbəttə, nazirlik bütün imkanlardan istifadə edib nəzarəti gücləndirməliyidi".

Yeni nazirin təyinatına gəlincə, ekspert bunun prezidentin səlahiyyətinə aid olan məsələ olduğunu, bu sahədə uğurlu kadrların tapıla biləcəyini vurğulayıb: "Mən düşünürəm ki, Azərbaycanda İKT sahəsində, istər dövlət sektorunda, istərsə də özəl sektorda bunun üçün yetərincə kadrlar var. Arzu edərdik ki, elə bir adam nazir təyin edilsin ki, bu sahədəki problemlərdən xəbərdar olsun. Mənim fikrimcə, elə bir adam tapılacaq. Bu sektorda dönüş yaradılması üçün kadr dəyişikliyi ilə bağlı qərar nə qədər tez verilsə, bir o qədər yaxşı olardı. Çünki qarşıdan "Bakutel" sərgisi gəlir. Beynəlxalq təşkilatlar bu sərgiyə gələcəklər. İKT sektorunda görüləcək təxirəsalınmaz işlər çoxdur. Bu mərhələdə qurumun başsız olması elə də yaxşı hal deyil. Ümid edirik ki, yaxın günlərdə məqsədəuyğun bir kadr təyin ediləcək".

**O.Gündüz onu da qeyd edib ki, yeni nazir təyinatından sonra Azərbaycanda İKT sektorunda rəqabətli mühitin yaradılmasına, internet qiymətlərinin endirilməsi və keyfiyyətin yaxşılaşdırılması ilə bağlı islahatlara ehtiyac var:** "Uzun müddətdir ki, endirimlərlə bağlı addımların atılması ləngiyirdi. Axırıncı dəfə böyük endirim bir neçə il bundan öncə baş vermişdi. Bundan sonra dövlət provayderlərinin məsələsinə yenidən baxmaq lazım gələcək. Azərbaycanın internet məkanında dövlət provayderləri deyilən məsələ var ki, sərbəst rəqabətə maneə yaradır. Düşünürəm ki, ilk olaraq Bakinternet, "AzTelekom", ümumiyyətlə, dövlət provayderinin statusu ilə bağlı məsələyə yenidən baxılmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 253 (6281) 14 noyabr 2015

**Milli Məclisin Elm və təhsil komitəsinin sabiq sədri, professor, YAP-ın qurucularından olan “Şöhrət” ordenli Şahlar Əsgərov koordinat.az saytına müsahibəsində Azərbaycan Milli Elmlər Akadaemiyası və ölkəmizdə elmin vəziyyəti barədə diqqətçəkən açıqlamalar verib.**

# "Elmlər Akademiyasının adının qarşısında "milli" sözü yazılması düzgün deyil"

## Şahlar Əsgərov: “Bu cür idarəçiliklə təhsil sistemini inkişaf etdirmək, universitet qurmaq və yaxşı təhsil ənənələrini yaşatmaq olmaz”



Şahlar Əsgərov

**Şahlar Əsgərov** bildirib ki, artıq Azərbaycanda da yeni universitetlər var. Amma köhnə düşüncə və tərbiyə sistemi hələ alimlərin beynindədir. İndi də universitet müəllimləri istəyər ki, tələbəsi onunla üzbəüz söhbət edəndə pencəyinin düyməsini bağlasın və dik dursun. Yəni tələbə müəllimin qabağında əmrə müntəzir olsun. Amma Qərbdə belə düşüncə yoxdur, tələbələr də müəllimləri qədər azaddır: “Mən bu yaxınlarda Bakıdakı universitetlərin birində olarkən gördüm ki, rektor orada təhsili nizama salmaq üçün çox çalışır. Amma təhsil o qədər qarışıb, o qədər mürəkkəbləşib və kif tutub ki, rektor universiteti bu kifdən təmizləyə bilmir. Niyə? Ona görə ki, universitet-ölməz qurum ölənə-uzun müddət burada rektor işləyən adama qurban verilibmiş. Çünki bir adam universitetə rektor qoyulur və ölənə qədər də həmin vəzifədə işləyir. Heç kəs anlamaq istəmir ki, bu cür idarəçiliklə təhsil sistemini inkişaf etdirmək, universitet qurmaq və yaxşı təhsil ənənələrini yaşatmaq olmaz.

Bir çoxları anlayır ki, ali məktəb rəhbərləri bu vəzifəyə seçki yolu ilə gəlsə yaxşıdır. Amma biz hələ bunu qəbul edə bilmirik. Hələ biz qəbul edə bilmirik ki, rektorlar 5 ildən bir seçilsə yaxşıdır".

**Sabiq deputat onu da deyib ki, elmdə də təsadüfi adamlar çoxdur. Bəzi alimlər atasının, o birisi qohumunun, digəri başqa bir himayədarın diktəsi ilə elmə gəlib:** “Yeni belələri öz həyatını elmə yox, elmi öz həyatına qurban verirlər. "80-20" adlı Pareto qanunu var. Bu qanuna görə alimlərin 20 faizi elmi nəticələrin 80 faizini alırlar. Yerdə qalan 80 faiz alim isə 20 faiz nəticə alır. Ona görə müsəlman dünyasında bu nisbət bir az da arzuolunmaz şəkildədir. Həmişə həqiqi alimlər basqı altındadır".

**Ş.Əsgərov Milli Elmlər Akademiyasının adındakı “milli” sözünün götürülməsinin məntiqli olduğunu da qeyd edib:** “Azərbaycan Elmlər Akademiyası 1945-ci ildə yaradılarkən bu qurumun M.Mirqasımov, Yusif Məmmədəliyev, Ü.Hacıbəyov, Mirzə İbrahimov, Səməd Vurğun, M.Topçubaşov, Heydər Hüseynov, M.Qaşqay kimi şəxslərdən ibarət 15 üzvü olub. İnkişafın məntiqinə görə indiki akademiklər bunlardan daha qüdrətli olmalıdırlar. Hər kəs bugünkü akademikləri 1945-ci ilin akademikləri ilə müqayisə edib obyektiv nəticə çıxara bilər. Bizim neft alimlərimiz dənizdən neft tapdılar və SSRİ dövlətindən mükafat aldılar. Bu saat bizim hər birimizin hökumətdən aldığımız əməkhaqqı həmin alimlərin əməyinin nəticəsidir. Amma elm tarixi ilə bağlı kitabları axtarsaq, bəlkə də həmin alimlərin adlarını belə, o kitablardan tapa bilməyəcəyik. Ümumiyyətlə, mən Elmlər Akademiyasının adının qarşısında "milli" sözünün yazılmasını düzgün hesab etmirəm. Çünki 150 il öncə Anton Çexovun bir kələmında deyilir ki, milli vurma cədvəli olmadığı kimi, milli elm də yoxdur. Nə millidirsə o elm deyil. Mənim bu fikrimə qarşı əks arqument bu olar ki, biz Azərbaycan millətindən olan və ölkəmizdən kənarda yaşayan alimləri də akademiyanın himayəsi altına alırıq. Bəs, onda dünyaca şöhrəti olan Abbas Çayxorski, Əli Cavan, Əli Əmraslanovun adları “Akademiyanın dəftəri”ndə niyə yoxdur? ABŞ-da yaşayan Əli Cavan Nobel mükafatının bir addımlığında olmuşdur. SSRİ EA-nın ilk azərbaycanlı üzvü (1952 il), Stalinin geologiya üzrə müşaviri olmuş Əli Əmraslanov haqqında da akademiyanın tarixi ilə bağlı kitablarda məlumat yoxdur. Demək istəyirəm ki, akademiya dəyərli üzvlərinin və dəyərli alimlərin qayğısına qalmağı bacarmalıdır. Onda gənclik elmin dalınca gedər".

**“Elmi yeniliklərin həyatda tətbiq olunmamasının səbəbini nədə görürsünüz” sualına Ş.Əsgərov belə cavab verib:** “Müdriklik çatışmır. Məncə, elm bizdə dərk olunmayan həqiqətdir. Elm bizdə dərk olunmuş həqiqət olsaydı, milyonlarla pul xərcləyib Hollandiyadan qızılgül almazdıq. Çünki Azərbaycanın hər yerində, o cümlədən Abşeronda qızılgül bitir. Bu səbəbdən də biologiya elmi axsayır. Təxminən 2-3 ay əvvəl İsrailin keçmiş prezidenti 92 yaşlı Şimon Peres Ukraynada maraqlı bir müsahibə vermişdi. Peres yəhudi əsilli Şərq adamı olduğundan, kifayət qədər müdrik fikirlər söyləmişdi. O demişdi ki, İsrail düşmən qonşuların əhatəsində olduğu üçün bizim elmimiz müdafiəyə işləyir. İndi Azərbaycanın qonşuları bizim üçün azmı təhlükəlidir?! Axı biz də 20 ildən artıqdır müharibə şəraitində yaşayırıq, torpaqlarımız işğal altındadır, düşmənlərimiz də dostlarımızdan çoxdur. Onda Azərbaycan elmi niyə özümüzün müdafiəmizə işləmir? Elə İsrailin bu təcrübəsini də köçürüb özümüzdə tətbiq edək də. Bəs niyə eləmirik? Səbəbi düşüncə tərzindədir. Dövlət işi elə adama tapşırılmalıdır ki, o, ümumi mənafeni şəxsi mənafedən üstün tutur".

❑ E.SEYİDAĞA

# İqtidar üçün təhlükəsizlik zolağı



Azər RƏŞİDOĞLU

**Hakimiyyət dəhlizlərində sanki bir təlatüm yaşanmaqdadır. Qalmaqallı həbslər, kadr dəyişiklikləri kənar baxışla baxdıqda bir təlaş təsəvvürü yaradır. Komanda daxilində baş verənlər idarəçiliyin nöqsanlarını üzə çıxarır. Bu mərhələdə diplomatik cəbhədə parlaq bir qələbə diqqətin hakimiyyətdaxili problemlərdən yayınmasına səbəb ola bilərdi. Lakin bu müstəvidə də müsbət irəliləyiş mövcud deyil.**

Məsələ ondadır ki, son illərdə rəsmi Bakı xarici siyasətdə heç bir irimiqyaslı qələbə əldə edə bilməyib. Qarabağ münaqişəsinin nizamlanmasında bircə addım da irəliləyiş olmayıb. Hakimiyyət son 20 ildə ilk dəfədir ki, bu miqyasda xarici təzyiqlərlə üzləşib.

Hakimiyyətin küncə sıxıldığını və zəiflədildiyini öncəki məqalələrimizdə də vurğulamışıq. Lakin proseslərin soyuqqanlı təhlili onu deməyə əsas verir ki, Azərbaycanda dövlət çevrilişi etmək istəyən dövlət yoxdur, hətta rəsmi Bakını ən çox təhdid edən Kreml də bu mərhələdə hakimiyyəti devirməyə yox, laxlatmağa və növbəti dövrdə tam ssenarisini həyata keçirməyə çalışır.

Belə olan halda hakimiyyətin dövlət çevrilişləri cəhdlərindən danışması, ehtiyat etdiyini, xarici qüvvələr tərəfindən əzildiyini bəyan etməsi nə ilə bağlıdır?

Öncələr də yazmışıq ki, hakimiyyət sərt idarəçiliyə haqq qazandırmaq, yeni həbslər dalğasına başlamaq, bəzi məmurların dövlət çevrilişi cəhdində bulunduğunu iddia edib təqiblərin miqyasını artırmağa nail olmaq üçün ictimai rəydə özünün “əzabkeş” surətini yaratmaq istəyir. Bu barədə deyilənlərdə həqiqət payı heç də az deyil. Lakin iqtidar belə jestlərlə özü üçün təhlükəsizlik zolağa yaratmaq niyyətini gizlətmir də. Lakin burada daha bir incə məqam var. Artıq hakimiyyət əvvəlki qədər monolit deyil. Eyni zamanda Qərbin və Rusiyanın emissarları iqtidarda kifayət qədərdir. Bu maraq qrupları bir-birinə qarşı savaş açıb. Bir sözlə, hakimiyyət daxilində olan Rusiyapərəst qruplaşma ilə şərti olaraq qərbçi adlandırıla biləcək məmurlar bu savaşı daha da dərinləşdirir.

Məmurlar ordusu öz oyunlarını oynamağa başlayıb və bu da hakimiyyət eşelonunda mərkəzdənqaçma tendensiyalarının güclənməsinin xəbərçisidir. Növbəti mərhələlərdə, məsələn, 2018-ci il prezident seçkiləri ərəfəsində bu qruplaşmaların rəhbərlərinin harada olacağı böyük sual doğurur.

Beynəlxalq güclər Azərbaycanda hakimiyyət dəyişikliyinə nail olmaq istəyirmi? Bu suala birmənalı cavab tapmaq çətin olsa da “bəli” təsdiqi daha məqbul sayıla bilər. Lakin bunu nə zaman etmək istəyirlər? Əsas sual budur. Bir daha deyək ki, cərəyan edən və gələcəkdə baş verəcək proseslərin məntiqi sonluğu cəmiyyətin müqavimət gücündən və lazımı zamanda qəbul edəcəkləri qərarların effektliliyindən asılı olacaq.

Azərbaycanda inqilabçı lider və birləşdirici liderlərin hər birinin öz mərhələsi var. Bu mərhələlər uğurla bir-birini əvəzləyərsə, 2018-ci ildə və ya o vaxta qədər Azərbaycan tamamilə dəyişə bilər.

Cəmiyyətin müqaviməti yetərincə olsa və birlik nümayiş etdirə bilsə, seçkilərdə və yaxud seçkidən dərhal sonra dinc hakimiyyət dəyişikliyinə nail olmaq mümkündür.

Artıq indidən ehtimal edə bilərik ki, proses 2016-cı ildə daha fəal mərhələyə qədəm basa bilər. Ümumilikdə isə Azərbaycanda yeni sistemin formalaşdırılması prosesinə 2018-ci ildə başlana bilər.

Nə qədər banal səslənsə də xalq amili siyasi dairələr üçün əsas qüvvə olmayacaqsa, nəyisə dəyişmək mümkün görünmür. İstənilən halda 2018-ci il seçkiləri iqtidar üçün ağır ola bilər və beynəlxalq təzyiqləri də nəzərə alsaq, ehtimal edə bilərik ki, hakimiyyət daha da zəifləyə bilər. Zəif iqtidara isə şərtlərini qəbul elətdirmək beynəlxalq güclərə xeyli dərəcədə asandır. Bəlkə də bu gün ölkədə baş verənlər elə bu məqsədə xidmət edir...

# Qeyri-neft məhsullarının ixracı artıb

**Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 148 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 97 ölkəyə məhsul ixrac olunub, 135 ölkədən idxal olunub.**



Bu barədə musavat.com-a Dövlət Statistika Komitəsindən (DSK) məlumat verilib.

Ticarət dövriyyəsinin 9,2%-i MDB, 48,6%-i Avropa İttifaqı, 42,2%-i isə digər ölkələrin payına düşüb.

Hesabat dövründə xarici ticarət dövriyyəsinin həcmi 19 467,6 mln. ABŞ dolları, o cümlədən ixracın həcmi 12 889,1 mln. dollar, idxalın həcmi 6 578,5 mln. dollar təşkil edib, nəticədə 6 310,6 mln. dollarlıq müsbət xarici ticarət saldosu yaranıb.

İxrac edilmiş məhsulların ümumi həcmində xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, bitki və heyvan mənşəli piylər və yağlar, şəkər, alüminium və ondan hazırlanan məmulatlar, plastik kütlə və ondan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, idxal olunmuş məhsulların həcmində isə ərzaq məhsulları, tütün və tütün məmulatları, əczaçılıq məhsulları, qara metallar və onlardan hazırlanan məmulatlar, maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar, nəqliyyat vasitələri və onların hissələrinin xüsusi çəkisi üstünlük təşkil edib.

Yanvar-sentyabr aylarında qeyri-neft məhsullarının ixracı 2014-cü ilin eyni dövrü ilə müqayisədə 6% artaraq 1 179,0 mln. dollar təşkil edib.

YENİ MÜSAVAT
N 253 (6281) 14 noyabr 2015



# Təşəkkürlər, Eldar Mahmudov, təşəkkürlər, Ziya müəllim

**Samir SARI**

**Bizə (jurnalistlərə) başqa şey lazım deyil, yetər ki, hər 15 gündən bir nazirlərdən birini vəzifədən çıxarsınlar və mümkünsə, tutsunlar. Mümkün deyilsə, lazım deyil.**

Maraqlı olur, başlayırıq xalqı maarifləndirməyə. Düzdür, onsuz da hamı bilir ki, işindən çıxarılan nazir milyonçudur, biznes imperiyası var, vəzifəli qohumlar şəbəkəsi var, üst-üstə bir kəndlik villaları, evləri var, amma xalqımız bunların cədvəlini, şəklini görəndə çox məmnun olur.

Xalqımızın övladları orda-burda sanki yekə bir sirrin üstü açılıbmış kimi deyirlər: "Pah, dədənin evi tikilsin, bu qədər evi neynəyir, əə, bu? Hər otağında bir gün yatsa, ömrü bəs eləməz"; "Vay dədəəəə, insanın bir maşını olar, iki maşını olar, özünü öldürsün, beş maşını olar, bu boyda qaraj bunun nəyinə lazımmış, a kişi?"; "Atası, babası ulaq minənin balası "Ferrari"lərdə şütüyür, a millət, işə bax" və s. Baxırsan ki, düz deyirlər.

Bu kimi həsəd, qibtə, acıq, hiddət dolu cümlələri çox eşitmək olar. Amma məsələyə başqa prizmadan yanaşanlar da var: "Onun da olmayıb, kimin olacaq ki... o boyda nazirdir"; "Guya sənin, mənim elə vəzifəmiz olsa, villa tikdirmərik, "Porşe" almarıq?"; "Tək bu deyil ki, hamısının varıdır də" və s. Görürsən ki, bunlar da düz deyir.

Elə olur ki, bu hüdudsuz varidatdan yazan qəzetlərin elektron ünvanlarına qəzəb dolu məktublar gəlir, yeddi villası, on beş bahalı avtomobili, üç şadlıq sarayı, səkkiz supermarketi, altı butiki və sair və ilaxır iaşə, xidmət, ticarət obyektləri "aşkar olunmuş" nazir-oliqarxa qahmar çıxır, yazırlar: "O, daima dövlətçiliyimizə, prezidentimizə sadiq adam olub, həmişə öz camaatının, kollektivinin qayğısına qalıb. Siz ona qarşı qərəzlisiniz. Ayıb olsun! Ar olsun! Lənət olsun!". Hiss edirsən ki, bunlar haqsızdır.

Çünki adama deyərlər, rəhmətliyin oğlu, birincisi, o oliqarx naziri işdən biz çıxarmamışıq, biz dolaşdırmamışıq, ikincisi, onun malik olduğu varidatı dövlətin büdcəsindən, xalqın cibindən biz oğurlamamışıq, üçüncüsü, məngirlədiyi milyonlardan bir az paylayaraq özünə bir dəstə qulbeçə və kölələr dəstəsi təşkil edibsə, bunun camaata nə dəxli var?

Hələ utanmaz-utanmaz "dövlətçiliyə sadiq olub" deyirlər. Sadiq olub neyləyib? Heç nə. Dövlətçilikdən danışa-danışa dövlətin büdcəsini dağıdıb, özünə var-dövlət toplayıb, nəslinə vəzifə paylayıb, hələ bir minnət də qoyur.

Ona görə də belə adamlar vəzifədən götürüləndə, el dilində desək, yıxılanda avtomatik olaraq baltalar ovxarlanır. Balta vurmaq deyəndə, onları asıb-kəsən, kötüyün üstünə atıb şaqqalayan yoxdur, eləcə, hərə bir status yazır, "yaxşı oldu, çoxdan olmalıydı" deyir, ürəyini soyudur. Yıxılanı baltalayanlar başqalarıdır. Onlar yıxılanın əlində nəyi var almağa çalışırlar, amma nə qədər alsalar da, soyub-soytalasalar da, lap axırda məlum olur ki, adamın 3-4 villası, 5-6 maşını, 1-2 ton da pulu qalıbmış.

Belə anlaşılır ki, kimisə vəzifəyə qoyanda ilk və əsas işləri pul yığmaq, biznes genişləndirmək, imperiya qurmaq, yalnız və yalnız özlərinə işləmək olur. Bəlkə də istisnalar var. Xalq məhz o istisnanı axtarır.

Hərçənd bir gün işdən çıxarılan nazirin villalarının olmadığı, ucuz bir maşını olduğu məlum olsa, xalqımızın ona münasibəti milyarder nazirə olduğundan pis olacaq, orda-burda deyəcəklər, fərasətsiz, başıxarab adam olub, yaralı barmağa leykoplastır yapışdırmayıb, qanunpərəst oldu, neynədi, odey, indi metroda gəzir, canı çıxsın, ona haqq oldu.

Əslində kasıb nazirin *(hipotetik olaraq deyirəm, oxumuş adamlar demişkən)* işdən çıxarılması jurnalistlərə sərf eləmir. Çəkməyə villası, avtomobilləri yoxsa, dürlü cinayətləri aşkarlanmırsa, nə yazasan. Uzağı, bir gün "Nazirin işdən çıxarılmasının müdhiş pərdəarxası" başlığıyla yazı yazacaqsan, ertəsi gün bilinəcək ki, pərdənin arxasında müdhiş bir şey yoxmuş.

Bir də var, bir naziri işdən çıxaralar, müavinlərini tutalar və "şok təfərrüatlar" yazıldıqca yazıla. Bəzən adamın qəlbində belə nazirlərə minnətdarlıq duyğusu oyanır. Az qalırsan, belə bir başlıq verəsən: "Təşəkkürlər, Eldar Mahmudov, təşəkkürlər, Ziya müəllim".

***P.S.*** *Allah tərəfi, Ziya Məmmədovu vəzifədən çıxarmasalar da, jurnalistlər ondan çıxarılmış nazir qədər yazdılar və yazırlar.*

# "Naziriniz olmağımla fəxr edirəm, amma istefa verirəm..."

## Bizim nazirləri işdən çıxarırlar, amma "okeanın o tayında" istefa mədəniyyəti formalaşıb

**Azərbaycanın siyasi gündəmi son günlər qalmaqallı işdən çıxarılma hekayələri ilə zəngindir. Az qala 10 gündən bir hansısa nazir işdən çıxarılır, nazirliyin böyük fiqurlarının vəzifə səlahiyyətlərindən sui-istifadə etdiyi məlum olur.**

Azərbaycanda nəyə görəsə böyük vəzifələrdən istefa mədəniyyəti formalaşmayıb. Amma "Yeni Müsavat" son illərdə dünya miqyasındakı səs-küylü istefa hekayələrinin özətini hazırlayıb. Məlum olub ki, nazir, nazir müavini... səviyyəsində insanlar üçün istefa olduqca adi bir addımdır. Onlar adlarının hansısa qalmaqalda hallandırılmasına etiraz əlaməti olaraq da belə bir qərar verə bilərlər.



**Rüşvətxor nazirlər necə istefa verirlər...**

Bir neçə il bundan əvvəl Cənubi Koreyanın baş naziri Lee Wan-Koonun istefa ərizəsi qəbul edilib. İqtidarda olan Saenuri Partiyasından verilən məlumata görə, ölkəyə qayıdan dövlət başçısı Park Geun-hye istefa ərizəsini nəzərdən keçirib. Ərizəni qəbul edən dövlət başçısı hakimiyyətdə olduğu iki il müddətində 3-cü baş nazir olacaq şəxsi axtarıb. Lee Wan-koo dövlət layihələrini həyata keçirən Keangnam Enterprises şirkətinin rəhbəri Sung Wan-jongdan 30 milyon von (27 min dollar) dəyərində rüşvət aldığı iddia edilirdi. Şirkət rəhbəri ötən həftə intihar etmiş, evində axtarış zamanı baş nazirin rüşvət aldığı sənəd ortaya çıxmışdı.

2012-ci ildə müdafiə naziri Anatoli Serdyukov istefa verib. Həmin ərəfədə Rusiya Müdafiə Nazirliyi filmləri kölgədə qoyan qalmaqalla çalxalanırdı. Məsələ ondadır ki, 2000-ci ildə Rusiyada vergi idarəsində sadə işçi olan Anatoli Serdyukovun taleyi iş yerində dünyanın ən böyük şirkətlərindən biri olan "Qazprom"un rəhbəri Viktor Zubkovun yeganə qızı Yulia ilə tanış olandan sonra dəyişib. Anatoli Serdyukov Yulia ilə evləndikdən qısa müddət sonra vergi idarəsinin rəhbəri postuna keçib. Milyarder Mixail Xodorkovskini həbsə atdırmaq üçün məhkəməyə çox önəmli dəlillər təqdim edən Anatoli Serdyukov bununla ölkə rəhbərliyinin rəğbətini qazanır və 2007-ci ildə müdafiə naziri postuna gətirilir. O, prezident Vladimir Putinin ən sadiq adamlarından biri kimi tanınıb. Lakin Vladimir Putinin ordunu modernləşdirməklə bağlı böyük ümid bəslədiyi Anatoli Serdyukov bu vəzifəyə yüksələndən sonra həyatının dəyişməsində çox böyük rol oynamış Yulia ilə evliliyinə son qoyub və Müdafiə Nazirliyində çalışan, nazirlikdə ərazilərin satışına məsuliyyət daşıyan 32 yaşlı Yelena Vasilyeva ilə eşq yaşamağa başlayıb.

Rusiya polisi Vasilyevanın 12 otaqlı lüks villasında axtarış aparıb. Bu axtarış zamanı Anatoli Serdyukov da evdə yaxalanıb. Müdafiə Nazirliyindəki işindən keçən il ayrılan Yelena Vasilevanın villasında 3 milyon rus rublu və 5 çantada saxlanan milyonlarla dəyəri olan 1500 qiymətli daş-qaş tapılıb. Rusiya mətbuatı Anatoli Serdyukovun başı üzərində qara buludların dolaşmasını keçmiş qayınatası Viktor Zubkovla əlaqələndirir. Rusiya KİV-lərindən biri yazıb ki, "müdafiə naziri olsan belə, gərək heç vaxt Viktor Zubkov kimi qayınata ilə mübarizə aparmayasan..."

**Məsuliyyət hiss etdiyi üçün istefa verən nazir**

**Gürcüstanın daxili işlər naziri Aleksandr Çikaidze də istefa ərizəsi yazanlar arasında olub. O, Zurab Vazaqaşvilinin ölümündə əli olan məmurları himayə etməkdə təqsirləndirildiyinə görə belə qərar qəbul edib. A.Çikaidze bəyanatında deyir:** "2006-cı ildə Zurab Vazaqaşvilini öldürməkdə əli olan polisləri himayə etməyim və sonradan onların guya istintaqa mane olmaları barədə bəyanatlar həqiqətəuyğun deyil. Lakin mən oğlu Zurabın məzarında partlayış nəticəsində Yuri Vazaqaşvilinin ölümünə görə müəyyən məsuliyyət hiss edirəm və istefa verirəm".

2015-ci ilin avqustunda Yunanıstanın baş naziri Aleksis Çipras istefa verib. Çipras bunu ölkədə keçiriləcək erkən seçki yolunu açmaq üçün etdiyini bildirib. Qeyd edək ki, Yunanıstanda SYRIZA-ANEL hökumətinin kreditorlara təklif etdiyi yeni müqavilə Çipras hakimiyyətinin sarsılmasına səbəb olmuşdu. Bundan sonra ölkədə erkən seçki ehtimalı artmışdı. Baş nazir Aleksis Çipras axşam saatlarında bir açıqlama etdi və istefa etdiyini bildirib.

Bu ayın 12-də Polşa hökuməti başda baş nazir Yeva Kopaç olmaqla istefa verib. Müvafiq qərar "Vətəndaş platforması" partiyasının 25 oktyabr parlament seçkilərində uduzmasından sonra qəbul edilib. Polşa prezidenti Ancey Duda prezident sarayında baş nazir Yeva Kopaçı ilə görüşüb. Görüş zamanı Duda hökumətin rəsmi istefasını qəbul edib.

**Kanslerin dostu olsa da istefa verib...**

2013-cü ilin 10 fevralında qalmaqallı dissertasiya plagiatlığında ittiham olunan Almaniyanın təhsil naziri, kansler Angela Merkelin yaxın silahdaşı sayılan Anetta Şavan tutduğu vəzifədən istefa verib. Bu barədə "Euronews" kanalı məlumat yayıb. İstefa verməsi haqda məlumatı Almaniya kansleri Angela Merkellə birgə mətbuat konfransında elə nazirin özü verib. Nazir hökumətlə yollarını ayırsa belə, plagiat ittihamını rədd edib və 5 gün əvvəl onu elmi dərəcədən məhrum etmiş Düseldorf Universitetini məhkəməyə verməyi planlaşdırdığını diqqətə çatdırıb. İstefasını isə hökumətin nüfuzuna zərbə vurmamaq məqsədilə əsaslandırıb.

Xatırladaq ki, Düseldorf Universitetinin səlahiyyətli nümayəndələri, Anetta Şavanın 30 il əvvəl "Şəxsiyyət və vicdan" adlı dissertasiyanı yazarkən başqa elmi işlərdən müəyyən hissələri sistematik olaraq və məqsədli şəkildə köçürdüyünü iddia edir. Maraqlıdır ki, qalmaqal Almaniyada parlament seçkilərinə 8 ay qaldığı bir vaxtda meydana çıxıb. Şavan siyasi baxımdan alman hökumətində o qədər də vacib vəzifə tutmasa da, Angela Merkelin ən sadiq silahdaşlarından sayılıb.

**"Naziriniz olmaqla fəxr edirəm, amma..."**

2015-ci ilin iyulunda Yunanıstanın energetika naziri istefa verdi. O, islahatlar haqqında qanun layihəsinin əleyhinə səs vermişdi. Yunanıstanın energetika naziri Panayotis Lafazanis hökumətdə yerdəyişmə nəticəsində öz postunu tərk edib. Lafazanis hakim partiyada sollar platformasına başçılıq edir və partiyanın daha 30 deputatı ilə birgə çərşənbə günü Yunanıstanın beynəlxalq kreditorlarla danışıqlara yol açan islahatlar haqqında qanun layihəsinin əleyhinə səs verib.

Bu ilin oktyabrında Kanadanın baş naziri Stiven Harper vəzifəsini tərk edib. Harper oktyabrın 19-da keçirilən parlament seçkilərində rəhbəri olduğu Mühafizəkarlar Partiyasının Liberal Partiyasına məğlub olmasından sonra bu addımı atıb. "Son 9 ildə sizin baş naziriniz olmağımla fəxr edirəm. Bu, əla təcrübə idi. Seçkilərin nəticəsi bizi qane etməsə də, xalqın heç zaman yanılmadığını deməliyəm" - Harper deyib.

Liberal Partiyası 2006-cı ildən sonra ilk dəfə parlament seçkilərində qələbə qazanıb. Beləliklə, partiyanın lideri Castin Trüdo Stiven Harperi əvəzləyərək Kanadanın 23-cü baş naziri olacaq.

**Bara gedib, sonra isə istefa verib...**

Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye naziri Yeiçi Miyazava istefa ilə nəticələnə biləcək növbəti qalmaqalla qarşılaşıb. Y.Miyazavanın özünün etirafına görə, hakim Liberal Demokratik Partiyanın onun rəhbərlik etdiyi yerli şöbəsi səhmlərinin 50 faizdən çoxu əcnəbi vətəndaşa məxsus olan yapon şirkətindən siyasi ianə alıb. Bu, yapon qanunvericiliyinə əsasən qadağandır.

2011-ci ildə Yaponiyanın xarici işlər naziri xarici vətəndaşdan alınmış ianəyə görə parlamentdə aparılmış kəskin debatlardan sonra istefa verməli olmuşdu. Onu bu addımı atmağa həmin vaxt müxalifətdə olan Liberal Demokratik Partiyası məcbur etmişdi.

Nazir jurnalistlərə bildirib ki, onun əməkdaşları ianənin yapon şirkəti tərəfindən ödənildiyini güman ediblər. Lakin yoxlamadan sonra 400 min yen (3,7 min ABŞ dolları) məbləğində ianə bütünlüklə geri qaytarılıb.

Bu, nazirin qarşılaşdığı yeganə qalmaqal deyildi. Ötən həftə məlum olmuşdu ki, onu dəstəkləyən fondlardan birinin əməkdaşları sadomozaxist istiqaməti bara gediş təşkil ediblər. Y.Mizava bildirib ki, bu məsələyə onun heç bir aidiyyəti yoxdur və şəxsən özü heç zaman belə yerlərə getməyib.

**❑ Sevinc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 253 (6281) 14 noyabr 2015

**Rusiya işğalçı Ermənistanı sürətlə silahlandırmaq və tamamilə öz nəzarətinə almaq kursu götürüb. Son vaxtlar bunun əlamətlərini qabarıq şəkildə müşahidə eləmək olar. Rusiya xarici işlər naziri Sergey Lavrovun həftənin əvvəlində İrəvana etdiyi səfər bir daha göstərdi ki, Moskva üçün öz satellitinin önəmi xeyli artıb və şimal qonşumuz üçün İrəvanı öz orbitində saxlamaq qat-qat vacibdir, nəinki onu Dağlıq Qarabağ məsələsində Azərbaycana xatir hansısa güzəştlərə məcbur eləmək.**



# Rusiya Ermənistanı sürətlə silahlandırır - ilginc səbəb

## İşğalçı ölkənin xarici sərhədləri ilə birgə hava məkanının da Moskvanın nəzarətinə keçməsi Qarabağa nə vəd edir? Politoloq: "Kreml böyük riskə gedir..."

Lavrovun İrəvanda söylədiyi "Ermənistan istənilən məsələdə Rusiyaya arxalana bilər" sözləri ilk növbədə məhz buna işarə idi. Bunun ardınca məlumat yayıldı ki, Putin Ermənistanın hava məkanını birgə qoruma haqda sərəncam imzalayıb. Bu da o anlama gəlir ki, təcavüzkar ölkənin xarici sərhədləri ilə yanaşı, indi hava məkanını da Rusiya mühafizə edəcək. Başqa sözlə, Ermənistana hər hansı hava və ya quru hücumu Rusiyaya hücum kimi qiymətləndiriləcək - burdan çıxan bütün mümkün nəticələrlə birgə.

*****

Bundan cəmi iki gün sonra isə bəlli olub ki, Rusiya üstəlik, Ermənistana ayırdığı 200 milyon dollarlıq kredit həcmində güzəştli qiymətə silah-sursat və müasir hərbi texnikanı artıq Ermənistana yola salıb. Lakin təchizatı Gürcüstan vasitəsilə həyata keçirmək mümkün olmayıb.

**Məsələ barədə yazan erməni nəşri "Aykakan jamanak" vurğulayıb ki, ağır texnika Ermənistana uzun yolla çatdırılacaq. Sitat:** "Bu texnika Rusiya Federasiyasından Qazaxıstana, oradan İrana, İrandan isə Ermənistana gətiriləcək. Məsələ ondadır ki, Rusiya-Gürcüstan münaqişəsindən sonra Gürcüstan hakimiyyəti onların ərazisindən bizim ölkəyə Rusiya silahının gətirilməsinə icazə vermir. Nəticədə bu ağır texnikanın tədarükü üçün uzun bir yol seçilib. Hökumətyönlü dairələrdə Gürcüstana son səfərində Serj Sərkisyanın bu məsələyə də toxunması barədə məlumat var. Mətbuatın məlumatına müvafiq olaraq, əsasən zenit-raket kompleksi "İskəndər"lərdən ibarət 200 milyon dollarlıq bu hərbi texnikadan başqa, Ermənistan ölkəyə qısa yolla gətirə bilmədiyi digər texnikanı ("Smerç") da alıb".

*****

İşğalçı ölkənin energetika sahəsinin də Rusiyanın nəzarətində olduğunu ciddiyə alsaq, Kremlin Ermənistanı sürətlə öz quberniyalarından birinə çevirdiyinə şübhə qalmaz. Bütün bunlar o deməkdir ki, İrəvan Qarabağ məsələsində olan-qalan söz sahibliyindən də məhrum olur. Eyni zamanda Moskvanın Dağlıq Qarabağ məsələsində yaxın perspektiv üçün konstruktiv mövqe tutmağa hazırlaşmadığını təsdiqləyir.

**Son vaxtlar Rusiyanın guya Azərbaycanın bir neçə rayonun azad ediləcəyi ilə bağlı Ermənistana təzyiqlər göstərdiyi barədə KİV-lərdə dolaşan fikirlərə gəlincə, Rusiyanın Ermənistandakı səfirliyindən gələn təkzib xarakterli açıqlama öz-özlüyündə hər şeyi deyir. Sitat:** "Rusiyanın xarici işlər naziri Sergey Lavrovun İrəvana səfəri çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin nizama salınması kontekstində Ermənistan rəhbərliyi ilə apardığı danışıqlarda ərazi güzəştləri məsələsi müzakirə olunmayıb".



Qeyd edək ki, daha əvvəl Ermənistanın "Aykakan Jamanak", "Jovoxurd" nəşrləri, həmçinin Rusiyanın "Kommersant" qəzeti və bəzi yerli və rusiyalı ekspertlərə istinadən Lavrovun İrəvan səfəri ilə bağlı sensasion sayıla biləcək məlumatlar yayılmışdı. Məlumata görə, Rusiya Azərbaycanın Avrasiya İttifaqına üzv olması qarşılığında Ermənistandan Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun geri qaytarılmasını tələb edir, İrəvana təzyiqlər edir.

*****

Amma indi rəsmən aydın olur ki, Kreml öz marionetinə Bakının Avrasiya İttifaqına qoşulması naminə təzyiqlər göstərməyi planlaşdırmır. Bu, Qarabağ məsələsində status-kvonun qalmasının Kremldən ötrü nə dərəcədə mühüm önəm daşıdığını əyani sübut edir. Təcavüzkarın sürətlə silahlandırılması da bölgənin şimal qonşumuzdan ötrü hansı önəm kəsb etdiyini göstərir və Qərbə, Türkiyəyə, hətta İrana bir mesajdır.

Belə qənaət hasil olur ki, Rusiyanın indi Qarabağ məsələsinin nizamlanmasından daha çox, Ermənistanı bütünlüklə öz nəzarətində saxlamaq, onu platsdarma çevirib qonşu ölkələrə vaxtaşırı gərginlik yaratmaq, ən önəmlisi, ABŞ və onun regiondakı müttəfiqləri və tərəfdaşlarını daim hərbi güclə, hətta nüvə zərbəsi ilə hədələmək düşündürür.

Baş verənlər habelə, Moskvanın öz müttəfiqinin arxasında möhkəm dayandığını, onun xətrinə dəyəcək heç bir addım atmaq fikrində olmadığını göstərir - yetər ki, təcavüzkar ermənilər Rusiyaya qarşı sədaqətlərinə və mütiliklərinə xilaf çıxmasınlar.

*****

**Lakin sadalananlara rəğmən, əksər analitiklər şimal qonşumuzun öz hədəflərinə çatacağına inanmırlar. Onlardan biri də politoloq Qabil Hüseynlidir.**

"Rusiya hava hücumundan müdafiə sisteminin məhz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində yaradılacağını və bu prosesin ən təhlükəsiz mövqedə yerləşən Ermənistandan başlayacağını bildirsə də, məsələ bir qədər qəlizdir". Bu sözləri o, axar.az-a açıqlamasında Putinin Ermənistanla birgə hava hücumundan müdafiə sistemi yaradılması haqqında imzaladığı sərəncamı şərh edərkən deyib.

**Sabiq dövlət müşaviri hesab edir ki, Kreml bunun sözdə NATO-nun Rusiyaya qarşı yaratdığı hava sipərinin cavabı olduğunu bildirir:** "NATO-nun Şərqi Avropada qurduğu hava hücumundan müdafiə sistemləri Rusiyanın ballistik raketlərini havadaca məhv edir. Bunu anlayan Rusiya Qərbin hücumundan qorunmaq üçün raketdən müdafiə sistemləri inşa etməyi planlaşdırır. Rusiya bunun Ermənistandan başlayaraq ta Kalininqrada qədər uzaq məsafəni əhatə edəcəyini bildirir. Burada iki sual meydana çıxır: Rusiya bu qədər vəsaiti haradan əldə edəcək və proses baş tutarsa, Qərbin hava hücumundan müdafiə sistemləri ilə qarşı-qarşıya gələ biləcəkmi? Mən bu məsələyə o qədər də inanmıram. Çünki Qərb öz texnoloji üstünlüklərindən istifadə edərək Rusiyanın hərbi texnologiya sahəsində hər bir addımını neytrallaşdırır. Bu, o deməkdir ki, iqtisadiyyatı tamamilə zəifləmiş, büdcəsi kasad olan Rusiya yenidən ağır hərbi xərclərə gedəcək və ölkəsini sürətli silahlandıracaq. Bu silahlanma vaxtilə SSRİ-ni çökdürmüşdü. Rusiya üçün hansı fəsadlar yaradacağını isə gələcək göstərəcək. Zənnimcə, bu fəsadlar o qədər ürəkaçan olmayacaq".

Deməli, yaxın dövrdə Qərb-Rusiya münasibətlərindəki gərginliyin pik həddə çatacağı və ardınca yeqinlik hasil ediləcəyi gözləniləndir. Dağlıq Qarabağ konfliktin həll perspektivi sözsüz ki, həm də bu amildən asılı olacaq.

# Erməni diversiya qrupu məhv edildi - iki işğalçı öldü

## Düşmən həmsədrlərin narahatlıq dolu bəyanat verdikləri gündə də təxribatlarından qalmır...



**Noyabrın 12-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupu qoşunların təmas xəttində mövqelərimizə basqın etməyə cəhd göstərib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Silahlı Qüvvələrimizin bölmələrinin əvvəlcədən düşməni aşkar etməsi, görülən qabaqlayıcı tədbirlər və qarşı tərəfə vurulan atəş zərbəsindən sonra işğalçılar geri çəkilməyə məcbur edilib.

İlkin məlumata görə, düşmənin diversiya qrupunun 2 üzvü öldürülüb və xeyli sayda yaralılar var. Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib, əməliyyat şəraiti tam nəzarətimiz altındadır.

Bundan az əvvəl isə qondarma "DQR müdafiə nazirliyi" təmas xəttinin cənub istiqamətində ötən gecə baş vermiş döyüşlərə dair məlumat yayıb. Erməni KİV-ləri xəbər verib ki, noyabrın 12-də axşam saat 21 radələrində qoşunların təmas xəttində yerləşən erməni mövqelərinə endirilmiş zərbə nəticəsində iki erməni əsgəri - Vaqe Vardqesoviç Vanoyan və Mikael Arakeloviç Torosyan dünyasını dəyişib.

Maraqlıdır ki, erməni tərəfinin budəfəki təxribatı ATƏT-in Minsk Qrupu həmsədrlərinin təmas xəttindəki gərginlikdən narahatlıq ifadə edən bəyanatı ilə eyni günə təsadüf edib.

**Həmin bəyanatda deyilirdi:** "Minsk Qrupu AŞ PA-nın qətnaməsində Ermənistan və Azərbaycan qoşunlarının təmas xətti boyunca gərginliyin artması ilə bağlı ifadə edilmiş narahatlığı bölüşür. Biz insanların, o cümlədən mülki şəxslərin ölməsindən dərin təəssüf hissi keçiririk. Razılaşırıq ki, münaqişə xeyli müddətdir uzanır. Tərəflər sülh yolu ilə tənzimləməni sürətləndirmək üçün bütün zəruri tədbirləri görməlidirlər. Biz əminik ki, nizamlamanın danışıqlar əsasında əldə edilməsi üzrə tədbirlər tərəflər arasında qarşılıqlı sazişə söykənməlidir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# «Bakcell»dən yeni və maraqlı təklif: «Digiturk» ilə əməkdaşlıq çərçivəsində bütün «Bakcell» abunəçiləri üçün LİG TV canlı yayımları



Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Türkiyənin ilk və aparıcı rəqəmsal televiziya yayım platforması olan «Digiturk» şirkəti ilə yeni tərəfdaşlığa başladığını elan edir. «Digiturk» ilə uzunmüddətli tərəfdaşlıq çərçivəsində «Bakcell» İP və mobil əsaslı xidmətlər üzrə «Digiturk» şirkətinin Azərbaycanda eksklüziv tərəfdaşı olaraq, bütün «Bakcell» müştəriləri üçün geniş çeşidli TV məzmunu, xüsusilə futbol azarkeşləri üçün LİG TV kanalını təqdim edəcək.

Bu tərəfdaşlığın bir hissəsi kimi, «Bakcell» "Qoş və Coş" xidməti çərçivəsində özünün əyləncəli xidmətlər paketini təqdim edir. "Digiturk"lə tərəfdaşlıq bu paket daxilində ilk xidmətdir və gələcəkdə abunəçilərə maraqlı video məzmun təqdim edəcək başqa bir layihə ilə tanış olacaqlar. İndi «Bakcell» abunəçiləri yüksək sürətli 4G LTE xidməti ilə «Digiturk» şirkətinin təqdim etdiyi 100-dən çox populyar kanalı istənilən yerdə və istənilən zaman izləmək imkanına malikdirlər.

«Bakcell» hazırda Azərbaycanda ən qabaqcıl və ən böyük 4G LTE operatorudur. Bu təkliflə biz abunəçilərimizə təqdim etdiyimiz nadir xidmətlərin sayını artırırıq ki, onlar bizim yüksək sürətli LTE şəbəkəmizdən tam faydalana bilsinlər. Biz Türkiyənin ilk və ən böyük rəqəmsal platforması olan "Digiturk"lə tərəfdaşlıqdan məmnunuq. Bu tərəfdaşlıq əlaqələri sayəsində «Bakcell» öz abunəçilərinin sevimli TV kanallarını onlara daha da yaxınlaşdırır və sadəcə bir toxunuşla həmin TV proqramları izləmələrinə imkan yaradır. Biz inanırıq ki, canlı TV kanalları, təkrar izləmə imkanı və bir çox başqa formalarda xidmətlərin Azərbaycanda ilk dəfə olaraq istifadəyə verilməsi bizim mobil internet xidmətinə yeni bir məna verəcək və abunəçilərimiz üçün daha çox dəyər yaradacaq. LİG TV kimi premium idman kanallarını izləmək abunəçilərimizə «Bakcell» xidmətlərindən daha çox yararlanmaq şansı verəcək", - deyə «Bakcell» şirkətinin baş icraçı direktoru cənab Riçard Şirer bildirib.

«Digiturk» şirkətinin LİG TV idman kanalı hazırda Türkiyə Super Liqasının yayım hüquqlarına sahibdir. Öz həyatlarını futbolsuz təsəvvür edə bilməyən «Bakcell» abunəçiləri LİG TV-də yayımlanan eksklüziv kontenti güzəştli qiymətlərlə izləmək imkanına malik olacaq.

«Digiturk» şirkətinin baş icraçı direktoru Ertan Özerdem: «Digiturk» olaraq, biz Türkiyə ilə çox güclü mədəni və tarixi əlaqələrə malik olan Azərbaycanda xarici sərmayələrimizi yatırmaqda davam edirik. Bu çərçivədə, biz fəaliyyət göstərdiyi sektorda nüfuzlu brendə sahib olan «Bakcell» şirkəti ilə müqavilə imzalamışıq. Bu müqavilə Türkiyə Futbol Liqası, Türkiyə Basketbol Liqası oyunlarının və «Digiturk»ün 100-dən çox müxtəlif kanallarının «Bakcell» abunəçiləri üçün yayımını əhatə edir. Bu müqavilə sayəsində biz «Digiturk»ün innovativ IP və mobil xidmətlərini qonşu ölkədə yaşayan dostlarımıza təqdim edə biləcəyik. Ümid edirəm ki, bu əməkdaşlıq hər iki tərəf üçün çox uğurlu və faydalı olacaq. Rəqəmsal yayım sahəsində Türkiyənin aparıcı texnoloji şirkəti olaraq, biz insanların həyatının daha da yaxşılaşdırılmasına hədəflənən yeni layihələr yaratmaqda davam edəcəyik və bu istiqamətdə «Bakcell» ilə əməkdaşlıq etməkdən çox məmnunuq".

«Digiturk» Mobil TV tətbiqetməsindən həm iOS, həm də Android platformasından istifadə edən «Bakcell» abunəçiləri yararlana bilərlər. Həmçinin aşağıda təqdim olunan link vasitəsi ilə abunəçilər kanalları fərdi kompüter və noutbuklarında internet üzərindən izləyə bilərlər: http://www.digiturkplay.com/

Aktivasiya kodu yeni təklifə abunə yazılan bütün abunəçilərə verilir.

***

«Digiturk» kanallarını mobil cihazlarda və masaüstü kompyuterlərdə izləmək üçün «Bakcell» xüsusi mobil paketini təqdim edəcək. «Digiturk»ün mobil xidmət paketlərini seçərək, «Bakcell» abunəçiləri 100-dən çox məşhur televiziya kanalı ilə təqdim olunan eksklüziv futbol, idman, xəbərlər və əyləncə məzmunundan zövq alacaqlar. TV kanallarının siyahısını bu linkdən əldə edə bilərsiniz: «Digiturk».«Bakcell».com

Sür@ paketlərindən birini alan bütün «Bakcell» abunəçiləri «Digiturk» mobil yayımına pulsuz abunə yazıla biləcəklər. Paketi aldıqdan sonra, abunəçilər hesabı onlayn aktivləşdirmək üçün 24 saat ərzində aktivasiya kodunu və linki alacaqlar. Aktivləşdirmə kodu 7 gün ərzində qüvvədə olacaq.

***

Bu yeni xidmət «Bakcell» abunəçilərinə sevdikləri «Digiturk» kanallarını mobil telefonlarında zövqlə izləmək imkan verəcək.

**«Bakcell» öz abunəçilərinə data kartlar və planşetlər üçün 4 tarif təklif edir:**

| Data Karlar və planşetlər üçün | | | | |
|---|---|---|---|---|
| **Paketlər** | **Həcm** | **Aylıq bonus** | **Qiymət** | **Aktivləşdirmə** |
| Sür@ planşet | 5 GB | 5 GB | 15 AZN/ay | **134*55#YES* |
| Sür@ – 1 | 10 GB | 5 GB | 20 AZN/ay | **134*105#YES* |
| Sür@ – 2 | 35 GB | 5 GB | 40 AZN/ay | **134*355#YES* |

| Smartfonlar və planşetlər üçün | | | | |
|---|---|---|---|---|
| **Paketlər** | **Həcm** | **Aylıq bonus** | **Qiymət** | **Aktivləşdirmə** |
| Sür@ smartfon | 1 GB | 2 GB | 10 AZN/ay | **134*3#YES* |

**Yuxarıda göstərilən paketlərdən hər hansı birini almaqla, «Bakcell» abunəçiləri mobil cihazlarında (smartfon, planşet) internetdən istifadə etmək və «Digiturk» kanallarını izləmək, eləcə də pulsuz «Digiturk» SPORT TV paketinə abunə yazılmaq üçün data trafiki əldə edəcəklər.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbəbəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


# Rusiyada ər-arvadı öldürən azərbaycanlıya 18 il həbs cəzası

**Leninqrad vilayət məhkəməsi 2 nəfərin ölümündə təqsirli bilinən azərbaycanlını 18 il azadlıqdan məhrum edib. APA-nın verdiyi məlumata görə, Fərhad Alıyev Rusiya Cinayət Məcəlləsinin qətl, soyğunçuluq və qanunsuz odlu silah və döyüş sursatı saxlamaq maddələri ilə ittiham olunub.**

Məlum olub ki, Fərhad Əli oğlu Alıyev Sankt-Peterburqda yaşayıb və xüsusi taksi fəaliyyəti ilə məşğul olub. 2014-cü ilin fevralında o, avtomobilində olan evli cütlüyü soymaq üçün naməlum içki ilə onları zəhərləyib. Daha sonra o, cütlüyü Kirov rayonunda insan olmayan əraziyə aparıb və onlara məxsus əşyaları oğurlayıb. Bank kartlarından 255 min rubl (təxminən 4 min manat) pul çəkib. Hər iki şəxs zəhərlənmədən sonra huşunu itirməsi və bədən temperaturunun kəskin enməsi səbəbindən hadisə yerində ölüb.

F.Alıyev saxlanılarkən onun avtomobilindən tapança və güllələr aşkarlanıb. İstintaq zamanı təqsirləndirilən şəxs cinayəti boynuna almayıb. Lakin dövlət ittihamçısı lazım olan bütün sübutları məhkəməyə təqdim edib. Məhkəmə F. Alıyevi təqsirli bilərək onun cəzasını xüsusi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 18 il azadlıqdan məhrum etmə qərarı çıxarıb.

# Xəzərdə balıqçı batıb

**Xəzərin Pirallahı rayonu ərazisinə yaxın hissəsində balıqçı batıb. "Report" Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən xəbər verir ki, noyabrın 11-də FHN-in Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Pirallahı rayonu ərazisində dənizdə 1 balıqçının batması barədə məlumat daxil olub. Dünən hava şəraiti əlverişsiz olduğundan axtarışa bu gün FHN-in Aviasiya Dəstəsinin bir helikopteri cəlb olunub.**

# Oğru: "Qayınanamın evinə girdim, bir çöp də tapa bilmədim"

## "Hamı bilirdi ki, onun evində pul var"

**Gədəbəydə quldurluq törədən dəstənin başçısı saxlanılıb. Saxlanılan şəxsin bir müddət əvvəl qaynanasının evindən oğurluq etdiyi də müəyyənləşdirilib.**

Gədəbəy Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 15-də rayonun Slavyanka kəndində Zakir Rüstəmovun evinə daxil olub gəlini və nəvəsinin əl-ayağını, ağzını bağlayaraq, onları bıçaqla hədələyən, evdən pul və qiymətli əşyalar oğurlayan dəstəyə başçılıq edən şəxs saxlanılıb. Rüstəmova məxsus 4300 manat və 300 ABŞ dolları, eləcə də xeyli miqdarda qızıl-zinət əşyalarını quldurluq yolu ilə əldə edən dəstə başçısının 29 yaşlı Eşqin Məmmədov olduğu müəyyən edilib.

Gədəbəy Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Eşqin Məmmədov noyabr ayının 11-də Slavyanka kəndində yaşadığı evdə müəyyən edilərək istintaqa təhvil verilib".

Saxlanılan Eşqin Məmmədov Zakir Rüstəmovla qohumluq əlaqələrinin olduğunu, onun evində külli miqdarda pul və qızıl-zinət əşyalarının varlığından xəbərdar olduğu üçün cinayəti keçmiş həbsxana yoldaşları ilə planlı şəkildə təşkil etdiyini bildirib. Məmmədov əldə olunan pulun dəstə üzvləri arasında bölündüyünü, ancaq qızıl-zinət əşyalarını özünün götürüb qaçdığını da etiraf edib.

**Eşqin Məmmədov - saxlanılan şəxs:** "Hamı bilirdi ki, Zakir Rüstəmovun evində pulu, qızılı var. Mən də bildiyim üçün əvvəlcədən planlaşdırdıq. Plan qurdum, evə girdik və götürdük. Başqa yoldaşım qızılı aradan çıxarmaq istəyirdi, bunu mən etdim, satdım, pulunu da xərclədim".

Araşdırma nəticəsində Eşqin Məmmədovun avqustun 17-dən 18-nə keçən gecə qaynanası Amaliya Nağıyevaya məxsus evdən oğurluq etdiyi də üzə çıxıb.

Eşqin Məmmədov - saxlanılan şəxs: "Mən qaynanamın evinə girdim, evdə heç kim yox idi. Axtardım, bir çöp də tapa bilmədim. Şəxsiyyət vəsiqəsi ilə pensiya kartını götürdüm. Pensiya kartından da pul çıxmadı".

Faktla bağlı cinayət işi açılıb. Dəstə üzvlərinin başqa cinayətlərdə iştirak edib-etmədiyi araşdırılır (Region TV).

# MTN əməliyyat keçirdi: iki nəfər saxlanıldı

**Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində qaçaqmalçılıq yolu ilə, yəni gömrük sərhədindən gömrük nəzarətindən kənar külli miqdarda narkotik vasitə olan - 4 kiloqram 821 qram heroinin qanunsuz daşınmasının qarşısı alınıb,**

Cəlilabad rayon sakinləri Yunusov Cəmil Şadyar oğlu və Seyfullayev İlham Sultanağa oğlu şübhəli şəxs qismində tutulublar. Bu barədə sayta MTN-in İctimai Əlaqələr İdarəsindən bildirilib.

Hazırda faktla bağlı araşdırmalar aparılır.

# Məhkəmə ANS-in Xoşqədəm Hidayətqızı ilə bağlı iddiasını təmin etmədi

**Bakı Apelyasiya Məhkəməsində ANS Teleradio Şirkətinin Milli Televiziya və Radio Şurasına (MTRŞ) qarşı iddiası əsasında məhkəmə prosesi keçirilib.**

APA-nın məlumatına görə, prosesdə qərar qəbul edilib. Qərara əsasən, ANS-in iddiası təmin edilməyib.

Qeyd edək ki, şirkət şuranın 30 sentyabr 8/1 saylı qərarının ləğv olunması xahişi ilə müraciət edib.

Xatırladaq ki, sentyabrın 30-da MTRŞ-nin növbəti iclası keçirilib. İclasda ANS televiziyası tərəfindən "Televiziya və radio yayımı haqqında" Qanunun tələblərinin pozulması faktı üzrə inzibati icraata baxılıb.

ANS televiziyasının efirində yayımlanan və Xoşqədəm Hidayətqızının aparıcısı olduğu "Sən tək deyilsən" və "Xoşqədəmlə axtarıram səni" proqramının yayımının 5 oktyabr 2015-ci il tarixdən etibarən 1 (bir) ay müddətinə dayandırılması barədə qərar qəbul edilib.

İclasda həmçinin yayımı dayandırılmış həmin iki proqramın efir vaxtında mədəni maarifçilik, intellektual xarakterli proqramların yayımının "ANS Müstəqil Yayım və Media Şirkəti" tərəfindən təmin edilməsi barədə qərar qəbul edilib.

# Azərbaycanda yeni ilan növü tapılıb

**AMEA Zoologiya İnstitutunun Herpetologiya laboratoriyasının əməkdaşları Quba-Xaçmaz zonasının herpetofaunası üzrə tədqiqatlar aparıblar.**

AMEA-dan APA-ya verilən xəbərə görə, araşdırmalar nəticəsində Azərbaycanda Böyük Qafqazın yüksək dağlıq əraziləri üçün yeni Gürzələr (Viperidae) fəsiləsinə aid olan ilan növü (Pelias lotiyevi - Lotiyev başıqalxanlısı) aşkar edilib.

Bu növün dünya üzrə arealı Şimali Qafqaz regionudur və Böyük Qafqazın şimal yamacları boyu (Soçi ətrafı) ərazilərindən Dağıstan-Azərbaycan sərhədinə qədər uzanan kserofit dağlıq ərazilərini əhatə edir. Əldə edilən tapıntı Gürzələr (Viperida) fəsiləsindən olan Lotiyev başıqalxanlısının Azərbaycanda Böyük Qafqazın şimal yamaclarında yayıldığını sübut edir.

Hələlik bu növə Azərbaycanda yalnız Quba rayonu hüdudunda dəniz səviyyəsindən 1900-2300 m hündürlükdə yerləşən subalp dağlıq ərazilərində (Xınalıq kəndi ətrafı) rast gəlinib. Növün vertikal və horizontal istiqamətlərdə yayılmasının öyrənilməsi planlaşdırılır.

YENİ MÜSAVAT
N 253 (6281) 14 noyabr 2015



Mirvari Qəhrəmanlı

# "Azəriqaz"dan çıxarılan min nəfər işçinin taleyi necə olacaq?

## Mirvari Qəhrəmanlı: "5 ildən çoxdur ki, hər il struktur islahatları adı ilə minlərlə işçi ixtisara salınır"

**Xəbər verdiyimiz kimi, Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinin tabeliyində hüquqi şəxs statusuna malik olmayan təşkilatlar kimi fəaliyyət göstərən Abşeron, Binəqədi, Xətai, Xəzər, Qaradağ, Nərimanov, Nəsimi, Nizami, Sabunçu, Səbayel, Suraxanı və Yasamal qaz istismarı sahələri ləğv edilib.**

Belə ki, adıçəkilən sahələrin bazasında hüquqi şəxs statusuna malik olmayan iki qurum - Bakı Regional Qaz İstismarı Departamenti və Bakı Regional Qazın Satışı Departamenti yaradılıb. Ləğv olunan qurumların işçilərinə isə artıq xəbərdarlıq məktubları paylanılıb.

**"Azəriqaz" İB-dən verilən məlumata görə, bu dəyişiklikdən sonra işçilərin yeni departamentə qəbulu testlə həyata keçiriləcək:** "İşçilərin peşəkarlıq səviyyəsi SOCAR-ın baş ofisinin İnsan Resursları Departamenti tərəfindən şəffaf şəkildə yoxlanılacaq və onlar biliyinə və səriştəsinə uyğun ştat cədvəlində olan vakant yerlərdə işlə təmin ediləcəklər. Keçiriləcək imtahanların nəticəsinə görə əmək münasibətlərinin yeni yaradılan departamentdə davam etdirilməsi mümkün olmayan işçilər təhsil və ixtisaslarına uyğun olaraq birliyin idarəetmə aparatında və digər təşkilatlarında mövcud vakansiyalarda yerləşdiriləcək. İşlə təmin olunmayan və ya təkliflə razılaşmayan (sərbəstləşən) işçilərə SOCAR və Azərbaycan Neft-Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin müvafiq əmr-qərarı ilə müəyyən edilmiş əmək haqqının 5 misli miqdarında birdəfəlik işdənçıxarma müavinəti ödəniləcək ki, bu müavinətdən vergi tutulmur. Birdəfəlik işdənçıxarma müavinətindən yararlanmayan sərbəstləşən işçilərin isə "SOCAR üzrə sərbəstləşən işçilərin məşğulluğunun və sosial dayanıqlığının təmin olunmasına dair" Proqrama qoşulması üçün birlik tərəfindən SOCAR rəhbərliyinə müraciət ediləcək. Artıq 10 noyabr 2015-ci il tarixdən adıçəkilən proqrama qoşulmaq üçün ərizə qəbuluna başlanılıb. Sərbəstləşən işçilər 1 ay müddətində proqrama qoşulmaq üçün müraciət edə bilərlər. Qeyd edək ki, sərbəstləşmə əsasən idarəetmə aparatının işçilərinə şamil olunacaq".

Onu da qeyd edək ki, adıçəkilən bu proqrama qoşulan işçilərin tibbi sığortası saxlanılmaqla, bir il müddətində əmək haqqının 50 faizi ödənilir və həmin müddətdə vakant iş yerlərinə təmin edilir.

**"Azəriqaz" daxilində baş verən struktur dəyişikliklərinə münasibət bildirən Neftçilərin Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Mirvari Qəhrəmanlı "Yeni Müsavat" qəzetinə açıqlamasında bildirib ki, imtahan keçirilsə belə, burada işdən çıxarılan minə yaxın işçinin taleyi naməlum qalır:** ""Azəriqaz" İB-nın Bakının rayonları üzrə istismar idarələrində çalışan işçilərinin hamısına bildirişlər paylanılıb ki, idarələr ləğv olunacaq. 12 idarənin əvəzinə 2 departament yaradılıb. Həmin departamentlərə də işçilərin qəbulu seçim yolu ilə olacaq. Məni narahat edən isə odur ki, qaz sistemlərinə nəzarət edən, bu sahədə uzun illər çalışan insanlar var ki, onlar öz sahəsini yaxşı bilsə də kompüter sisteminə bələd olmadıqları üçün naşı olduqları üçün suallara cavab verə bilməyəcəklər və müsabiqədən kənarda qalacaqlar. Elə işçilər də var ki, imtahan zamanı həyəcandan biliklərini göstərə bilməyəcəklər. Elə də ola bilər ki, daha təcrübəli işçi az bal yığsın, daha təcrübəsiz işçi isə çox bal yığsın.

Hazırda ölkədə işsizlik baş alıb gedir, iş yerləri azdır. İşdən çıxarılanlara 5 aylıq birdəfəlik kompensasiya təklif edirlər ki, müvəqqəti olaraq ailələrini dolandırsınlar. Və yaxud proqrama qoşulmağı təklif edirlər ki, bu proqrama görə, işçiyə 1il müddətində aylıq əmək haqqının 50 faizi verilir, tibbi sığortası saxlanılır və gələcəkdə iş yeri açılarsa, ona iş yeri təklif edilir. Hər iki təklifin maddi dəyəri demək olar ki, eynidir. Bu proqrama qatılanların işlə təmin edilməsi şansı isə demək olar ki, çox aşağıdır".

**Mirvari Qəhrəmanlı həmçinin SOCAR rəhbərliyinin "Azəriqaz"da struktur islahatları adı ilə hər il minlərlə işçini isxtisar etməsindən narazılığını ifadə edib:** "5 ildən çoxdur ki, ARDNŞ-də islahatlar adı ilə ixtisarlar gedir. Təbii ki, bu qurumda struktur islahatlarına ciddi ehtiyac var. Ona görə ki, hasilat kəskin aşağı düşüb. Lakin bu islahatlar birdəfəlik aparılmalıdır. İnsanlar hər dəfə stress keçirirlər. Birdəfəlik islahatlar aparmaq üçün işçi qrupu oturub islahatlar planı hazırlamalıdır və "Azəriqaz"da birdəfəlik struktur islahatları aparılmalıdır. Kim yuxuda nə görürsə, səhər bir departament yaradır. Ümumi respublika səviyyəsində islahatlar aparmaq lazımdır. Bir çox rayonlarda hələ qaz yoxdur, qaz kəmərlərinin çəkilməsi başa çatmayıb. Sayğacların dəyişdirilməsi prosesi başa çatmayıb. Bu işlər başa çatdırıldıqdan sonra birdəfəlik kadr islahatları aparılmalıdır. Ancaq ildə iki dəfə struktur islahatları adı ilə insanları işsiz qoymağı mən birmənalı qarşılamıram. İndi də işdən çıxarılan bu min nəfərdən yəqin ki, yarısı işlə təmin oluna biləcək, qalanları kənarda qalacaq".

**QHT rəhbərinin sözlərinə görə, hələ ki yeni yaradılan iki departamentdə neçə vakant yer olması və işçilərin hansı vəzifələr üçün imtahan verəcəyi açıqlanmayıb:** ""Azəriqaz" İB-dən göndərilən əmrlər məndə də var. Bu əmrlər hamısı əsaslandırılmayan əmrlərdir. Əmrdə struktur islahatlarının səbəbi izah olunmur. Bildirilmir ki, təzə yaradılan departamentdə neçə vakant yer olacaq və işdən çıxarılanların nə qədəri işlə təmin oluna biləcək. İşçilərə də heç nə izah edilmir və bilmirlər ki, bu iki departamentin hərəsində neçə vakant yer var və hansı vəzifələr üzrədir. Bu məlumatlar onlara açıqlanmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycanda ağır cinayətlər artıb

## Psixoloq: "Heç kim qatil, cinayətkar kimi doğulmur..."

**Son zamanlar "Məktəbli məktəblini güllələdi", "Bakıda transseksualın boğazı kəsildi", "Oğlan sevdiyi qızı döydü" və ya öldürdü kimi xəbərlər hədindən artıq çoxalıb. Xüsusən də bu cinayət əməllərini törədənlərin və zorakılığa məruz qalanların gənclər və yetkinlik yaşına çatmayan uşaqlar olması diqqət çəkir.**

Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik İdarəsinin məlumatına görə, bu ilin 9 ayı ərzində yetkinlik yaşına çatmayanlara qarşı ümumilikdə 470 cinayət törədilib. Onların 244-ü yetkinlik yaşına çatmayan qızlara qarşı, 134-ü 14 yaşa qədər olan şəxslərə qarşı, 336 fakt isə 14-17 yaş arası şəxslərə qarşı törədilib. Bu ilin 9 ayında yetkinlik yaşına çatmayanlara qarşı törədilmiş zorakılıqlarla bağlı cinayətlərin sayı 133 olub. Ailə münaqişəsi və digər sosial məişət problemləri zəminində yetkinlik yaşına çatmayanlara qarşı 7 cinayət törədilib. Yetkinlik yaşına çatmayanlara qarşı cinayət törətməsi müəyyən edilmiş şəxslərin sayı 437 olub.

Bəs cinayət əməllərinin günü-gündən artmasına səbəb nədir?

**Psixoloq Dəyanət Rzayev cinayətlərin başvermə səbəbinin kökünün tərbiyədən başlandığını və bunda məktəblərin günahkar olduğunu dedi:** "Cinayət törədən insanların 99,9 faizi sağlam insanlardı. Sadəcə olaraq, onlar psixopatiyaya meyllidirlər. Psixopatiyada bu diaqnozdur. Amma o, anlamlı diaqnoz sayılır. Bu şəxsiyyətin patologiyasıdır. Ümumiyyətlə, cinayət baş verməmişdən əvvəl onun qarşısını almaq, profilaktikası anlayışı var. Bu profilaktika ilə isə valideynlər, uşaq bağçaları, məktəblər məşğul olmalıdır. Əgər bu gün ikinci sinif şagirdinin valideyninə məktəb müdiri kobud şəkildə "Get burdan" deyib onu dinləmirsə, bu insanın uşaqlarımıza hansı təlim-tərbiyə verməsini gözləmək olar?! Biz o dəqiqə psixoloqla əlaqələndirirk bu vəziyyəti. Psixoloq neyləsin? Ümumiyyətlə, Azərbaycanda normal psixoloq yoxdur. Biz 10 ildən sonra tamamilə cinayətkar olacağıq. Yolda getmək belə təhlükəli olacaq. Əgər bu gün məmur övladı gedib kiminsə balasını bıçaqlayıb cəzasız qalırsa, bu cəmiyyətdən nə gözləmək olar? Bu gün polis insana pul mənbəyi kimi baxırsa, bu təbii ki, belə olmalıdır. Polis hadisənin qarşısını almaq əvəzinə, hadisənin baş verməsini gözləyir ki, gedib 5-10 manat alsın. Mən yalnızca polisləri hədəf almıram. Bu sözlər digər peşə sahiblərinə də aiddir. Məsələn, müəllimlər də şagirdə pul mənbəyi kimi baxırlar. Məktəblərdəki vəziyyəti görəndə insan öz övladını onlara necə əmanət etsin deyə düşünür. Hər şey bağçadan, məktəbdən, tərbiyədən başlayır. Heç kim qatil, cinayətkar olaraq doğulmur. Bu gün məhkəmələr də bərbad vəziyyətdədir. Hər şey rüşvətin, korrupsiyanın üzərində qurulub. Məsələn, bina yandı, müharibə veteranı özünü yandırdı, kim cəzalandırıldı? Heç kim. Hər şeyi batırırlar. Sabah mənim uşağıma hansısa məmur balası nəsə etsə, mən ona heç nə edə bilmərəm. Haqqın yerini tapması üçün yalnız bir əlacım qala bilər ki, gedim özümü öldürüm. Bu gün insanlar insanlıq simasından çıxıblar. İnsanlar daxilində qorxu ilə yaşayırlar".




Dəyanət Rzayev

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 253 (6281) 14 noyabr 2015



## Dikdaban ayaqqabıların zərəri

Dikdaban ayaqqabı dırnaq batması, ayaq baş barmağının içə doğru əyilmiş dayanması, döyənək və göbələk infeksiyası yaradır. Qadınlarda ayaq və topuq problemləri fikirləşdiyimizdən daha tez özünü göstərir. Belə ki, bəzi vaxtlarda hər 3 qadından biri ayaq sağlamlığından şikayət edir. Ayaq problemləri ən çox da günün çox hissəsini ayaq üstdə işləyən qadınlarda olur. Ayaq xəstəliklərinin yaranmasında ayaqqabı seçimi əhəmiyyətli yer tutur. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, hər 6 qadından biri səhv ayaqqabı seçimi nəticəsində ayaqlarında yaranan əyilmə problemlərindən əziyyət çəkir. Belə ki, topuq hündürlüyü 2-2.5 santimetri keçməməlidir. Topuqların bu dərəcədə hündür olması ayaq üstdə olanda belin ağrımasına yol açır. Bunun əksinə, daban hündürlüyü 8-9 sm-in üzərindəki ayaqqabılarda isə bədən yükü ayaq daraq sümükləri boyunca irəliləyərək ayaq ucunda toplanır. Bu tip ayaqqabı geyən qadınlarda topuq və ayaq önü ağrıları tez-tez hiss edilir. Dünyada hər 6 qadından biri həftədə ən azı 3 gün hündürdaban ayaqqabı geyərkən, yıxılaraq topuq burxulması problemi yaşayır. Davamlı olaraq istifadə isə barmaqların sıxışmasına yol açır. Bu da dırnaq batmaları, sümüklərdə çıxıntı kimi kiçik problemlər yaradır.

# 7 yaşlı qıza 48 milyonluq üzük

Honq-konqlu iş adamı Josef Lu 7 yaşlı qızı üçün dünyanın ən bahalı almazı olan "mavi ay"la bəzədilmiş üzüyü alıb. Cenevrədə hərraca çıxarılan 12,3 karatlı "Blue Moon" adlı nadir parlaqlığa sahib olan mavi almaz üzüyü honq-konqlu biznesmen Hosef Lu tərəfindən 48 milyon dollara alınıb. Satışdan sonra adətlərə uyğun olaraq üzüyün adı dəyişdirilib və "Blue Moon of Josephine" (Josephinenin mavi ayı) olub. Məlum olub ki, Josephine Josefin 7 yaşlı qızının adıdır. Honq-Konqun məşhur milyarderlərindən olan Lu ötən ilin noyabr ayında da Cenevrədəki hərracda 13 yaşlı qızı Zoe üçün dəyəri 8 milyon 430 min dollar olan sancaq satın almışdı. "Forbes" jurnalının məlumatına görə, dünyanın ən zəngin 114-cü iş adamı olan Josefin 9,8 milyard dollar sərvət var. Onun xəzinəsində qiymətli 17,4 milyon dollar olan Andy Varhol imzalı "Mao Zedong" tablosu da var.



# Qanamanı kəsən gel

Rusiyada araşdırma aparan alimlər qanaxmanı bir dəqiqədə dayandıran gel hazırlamağı bacarıblar. Hələ də alimlərin üzərində çalışdığı gel canlıların qabığında olan polimer kitosan maddəsindən hazırlanır. Dərman hazırlanan firmanın rəhbəri olan Mixail Gorşenin gelin qan hüceyrələrinə təsir edərək daha tez laxtalanmaya səbəb olduğunu deyib. Gorşenin sözlərinə görə, laboratoriyada gel heyvanların üzərində yoxlanılıb və 30 saniyədən qısa müddət ərzində qanı laxtalandırdığı məlum olub. Hazırda buna bənzər bir çox dərman var, lakin onlar qanaxmanı 5-7 dəqiqədə dayandıra bilir. Üstəlik, yeni hazırlanan geli yaradan silməyə ehtiyac olmur. Qısa müddət sonra yaradan itə bilir. Bədəndə itən gelin daxili qanaxmalar üçün də istifadə edilməsi üçün təcrübələr aparılır. Qısa müddət sonra satışa çıxarılacaq dərmanın istehsalına Nijni-Novqorodda başlanılacaq.





## 1 gecə yuxusuz qalmaq belə kökəldir

Amerikanın Cedars Sinai tibb mərkəzində aparılan araşdırmalar nəticəsində məlum olub ki, bir gecə yuxusuz qalmaq 6 ay yağlı qidalar yeməklə eynidir. Mütəxəssislərin fikrində yuxusuzluqla kökəlmə arasında güclü əlaqə var. Yuxusuzluq içərisində yüksək miqdarda yağ olan yeməklərə meylliliyi artırır. Bu da öz növbəsində şəkərə qarşı istəyi çoxaldır. Beləliklə, bir gecə yuxusuz qalmaq orqanizmdə xolestorolun və şəkərin artmasına səbəb olur. Araşdırmanı aparan Josiane Brousard normal yuxu rejiminin kökəlmə və şəkər xəstəliyinə tutulma riskini azaltdığını dilə gətirib.




**QOÇ** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**BUĞA** - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

**ƏKİZLƏR** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**XƏRÇƏNG** - İxtiyarınızda olan bu gözəl gün hamıdan çox sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**ŞİR** - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**QIZ** - Qarşınızda duran bu təqvimdə yalnız işgüzarlığınızı artırmalısınız. Yeni işlərə başlamaq haqqında sövdələşmələr aparın. Çünki bu addım böyük perspektivlərdən xəbər verir.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir tarix yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Həqiqətə yaxın olan arzularla yaşayın. Paxıl və bədxah adamların müdaxilələrinə fikir verməyin. Bürcünüzün "hakimiyyətdə" olduğu bu maraqlı gündə enerjinizi boş şeylərə görə itirməyin.

**OXATAN** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməyə çalışın.

**OĞLAQ** - Qarşınızda kifayət qədər füsunkar bir təqvim durur. Xüsusən də nahardan sonra həyatdan zövq alacaqsınız. Bundan başqa gün ərzində bəzi sirləri açmaq imkanınız olacaq. Axşam qonaq gedin.

**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**BALIQLAR** - Səhər saatlarında proseslər mənfi istiqamətdə cərəyan edə bilər. Bu səbəbdən bəzi məsələlərdə ehtiyatlı olmalısınız. Günortadan sonra nüfuzlu və etibarlı adamlarla görüşməyiniz vacibdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dənizin altından 500 ton qızıl çıxdı




Çin geoloqları dənizin altında 500 ton qızıl tapdıqlarını açıqlayıblar. "Sputnik" saytının xəbərinə görə, çinli geoloqlar dənizin altından 2 böyük qızıl külçəsi tapıblar. Qızılın dəniz səviyyəsindən 2 kilometr aşağıda olduğu bəlli olub. Qızılın satış qiymətinin 16,4 milyard dollar olduğu açıqlanıb. Məlumatlara görə, keçmişdə də çinlilər dəniz altında tonlarla qızıl olduğundan şübhələnirmişlər. Hindistana da Hind okeanında axtarış aparılması ilə bağlı müraciət edilib. Bölgədə yüksək miqdarda gümüş olduğu da güman edilir.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.